

## BOK AZƏRBAYCANDAN ÜZR İSTƏDİ

Beynəlxalq Olimpiya Komitəsi Fransa telekanalının müxbirinin işlətdiyi ifadələrə görə Azərbaycandan üzr istəyib. Komitədən bildirilib ki, bu işə görə məsul olan bütün şəxslərlə əlaqə saxlanılıb, onlara BOK-un prinsip və iş protokolları bir daha xatırladılıb.

SƏHİFƏ 2-də

# YAXIN ŞƏRQ YENƏ ÇALXALANIR

İranda baş verən hadisələr dünyanın diqqətindədir. Prezident Pezeşkianın andiçmə gününün səhəri HƏMAS-ın lideri İsmayıl Haniyənin qətlə yetirilməsi tək regionu deyil, dünyanı şoka salıb. İlkin məlumatlara görə, Haniyənin gecələdiyi villaya İsrailə məxsus PUA raket zərbəsi endirib.

İsrail sui-qəsdə görə ittihamları rədd etsə də, buna önəm verən yoxdur. İran rəsmiləri artıq bəyan ediblər ki, İsmayıl Haniyənin qisasını almaq onların borcudur. İranın ali dini lideri ayətullah Əli Xamenei deyib ki, Haniyəni qətlə yetirməklə İsrail özü üçün ağır cəzaya zəmin yaratdı.

SƏHİFƏ 6-da




'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

www.kaspi.az

3 AVQUST ŞƏNBƏ 2024 I 29 (4180)

Qiyməti - 40 qəpik




## BEYNƏLXALQ ƏHƏMİYYƏTLİ BAŞAĞRISI

İndi Fransanı tək keçmiş və hazırkı müstəmləkələri, müsəlman dünyası deyil, Vatikandan tutmuş ABŞ prezidentliyinə namizəd Trampa qədər hamı tənqid atəşinə tutur. Makron Fransası özünün dünyada baş verən proseslərə baxışını zorla bir standart, ölçü vahidi kimi qəbul etdirmək istəyir.

SƏHİFƏ 4-də



## HOTELLƏRİMİZ "HALAL" OLACAQ

2020-ci ildə dəyəri 220 milyard dollar olan "halal turizm" sənayesinin qlobal iqtisadiyyata töhfəsi 2026-cı ilə qədər 35 faiz artaraq 300 milyard dollara çatacaq. Belə ki, dünya üzrə müsəlman ziyarətçilərin sayının 2026-cı ildə 230 milyona çatacağı və qlobal turistlərin 10 faizindən çoxunu təşkil edəcəyi gözlənilir.

SƏHİFƏ 12-də



# PARİSDƏ AZƏRBAYCAN CÜDOSUNUN TRİUMFU

Parisə 48 idmançı ilə yollanan Azərbaycan komandası artıq "şeytanın qıçını qırmağı" bacarıb. Cüdoçularımız Hidayət Heydərov və Zelim Kotsoyev bütün rəqiblərini üstələyərək Fransa paytaxtında iki dəfə Azərbaycan himnini səsləndiriblər, şanlı bayrağımızı ucaldıblar.

### CÜDOÇULARIMIZ PARİSDƏ TARİX YAZDILAR

Fransanın paytaxtı Parisdə Yay Olimpiya Oyunları davam edir. Olimpiadaya 48 idmançı ilə yollanan Azərbaycan komandası uğurlu çıxışı ilə diqqət çəkir. Təmsilçilərimiz artıq üç medalı rəsmiləşdiriblər. Boksçu Alfonso Dominqes yarımfinala yüksəlməklə ən azı "bürünc"ü özü üçün təmin edib. Cüdoçularımız isə Parisdə tarix yazdılar.



### OLİMPİADADA SƏKKİZ İLLİK HƏSRƏTƏ SON

Hidayət və Zelimin uğuru ilə Azərbaycanın Olimpiadalardakı səkkiz illik həsrəti başa çatıb. Sonuncu dəfə 2016-cı il Olimpiadasında taekvondoçu Radik İsayev fəxri kürsünün ən yüksək pilləsinə qalxa bilmişdi. Bu çempionluqlar eyni zamanda Azərbaycanın Yay Olimpiya Oyunlarında doqquzuncu qızıl medalı kimi tarixə düşüb.

SƏHİFƏ 16-da



## ZƏNGƏZUR DƏHLİZİ DÜYÜNÜ ÇÖZÜLÜR

Okeanın o tayından başlayaraq Pekinə qədər hər kəsin maraqlarına xidmət edəcək Zəngəzur dəhlizinin düyünü, deyəsən, artıq çözülmək üzrədir. İndi əsas olan Ermənistan rəhbərliyinin siyasi iradə və qətiyyət nümayiş etdirməsidir.

SƏHİFƏ 3-də



## YEMİŞİ NİYƏ ÇİNDƏN GƏTİRİRİK?

Hər il yay başlayanda bostan mövsümü ərzində yetişdirdiyi yemişi, qarpızı sata bilməyən fermerlərin şikayətlərini eşidirik. Bəs özümüzdə bolluqdursa, yetişdirə biliriksə, yemişi niyə xaricdən idxal edirik?

SƏHİFƏ 13-də



## "KİNEMATOQRAFIMIZ GƏRƏK POEZİYADAN BƏHRƏLƏNSİN"

Yavər Rzayev: "Bizim milli dəyərlər var, kinematoqraf onun yolunu tapmalıdır. Bu, rejissorun intellektindən, biliyindən, istəyindən asılıdır. İnanıram ki, belə istedadlı uşaqlar var, bu yolla öz sözlərini deyəcəklər".

SƏHİFƏ 8-9-da



Qazaxın azad olunan kəndində mina partlayıb

SƏHİFƏ 2-də



SOCAR Sloveniyaya qaz təchizatına başlayıb

SƏHİFƏ 11-də



Kərə yağını bahalaşdıran səbəblər

SƏHİFƏ 10-da



Artım qərarının yaratdığı suallar

SƏHİFƏ 7-də



Yayda payız havasının fəsadları

SƏHİFƏ 15-də



# Turizmlə bağlı yeni mərkəz yaradılıb

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində Turizm və Rekreasiya Zonalarının İdarə Edilməsi və İnkişafı Mərkəzinin yaradılması haqqında” Fərman imzalayıb.

Fərmanla müəyyən edilib ki, Mərkəz Azərbaycanda turizm və rekreasiya zonalarının fəaliyyətinin təşkilini, onların idarə olunmasını və inkişaf etdirilməsini həyata keçirən publik hüquqi şəxsdir.

Mərkəzin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr və onun iki müavini daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır.

Mərkəzin fəaliyyətinə cari rəhbərliyi icraçı direktor həyata keçirir.

Mərkəzin saxlanılması və fəaliyyətinin təmin edilməsi onun fəaliyyətindən əldə edilən gəlir, ianələr, qrantlar və qanunla qadağan edilməyən digər mənbələr hesabına həyata keçirilir.



# Qazaxın azad olunan kəndində mina partlayıb

Qazax rayonunun Qızılhacılı kəndində mina partlayışı hadisəsi baş verib. Bu barədə Baş Prokurorluq, Dövlət Sərhəd Xidməti və Minatəmizləmə Agentliyi (ANAMA) birgə məlumat yayıb.

Bildirilib ki, avqust ayının 2-də Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası ilə bağlı 19 aprel 2024-cü il tarixdə əldə olunmuş razılaşma əsasında ölkəmizə geri qaytarılmış Qazax rayonunun Qızılhacılı kəndində Ermənistan tərəfindən basdırılmış minalar partlayıb:

“Hadisə nəticəsində Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu gizir Əhədli Xəyal Ədinəqulu oğlu və Minatəmizləmə Agentliyinin əməkdaşı Mehdizadə Afiq Müşviq oğlu minatəmizləmə işləri zamanı xidməti vəzifələrini icra edərkən piyada əleyhinə mina partlayışı nəticəsində ayaq nahiyəsindən xəsarət alıblar.

Agentliyin əməkdaşları Ələkbərov Elçin İlham oğlu və Mirzəyev Yavər Gəray oğlu isə qəlpə yaraları alıblar. Xəsarət alan şəxslər ilkin tibbi yardım göstərilməklə dərhal xəstəxanaya çatdırılıblar. Həyatları üçün təhlükə yoxdur”, - deyə məlumatda deyilib.



# BOK AZƏRBAYCANDAN ÜZR İSTƏDİ

**Beynəlxalq Olimpiya Komitəsi Fransa telekanalının müxbirinin işlətdiyi ifadələrə görə Azərbaycandan üzr istəyib. Bildirilib ki, bütün məsul şəxslərlə əlaqə saxlanılıb, onlara BOK-un prinsip və iş protokolları bir daha xatırladılıb.**

FUAD ABASOĞLU

İyulun 26-da Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarının açılış mərasimində ev sahibi dövlətə məxsus televiziya olan “France2” telekanalının müxbirinin Azərbaycana qarşı qərəzli ifadələri ilə bağlı Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi tərəfindən Beynəlxalq Olimpiya Komitəsinə göndərilən rəsmi etiraz məktubuna cavab gəlib. Bu barədə “Report”un sorğusuna cavab olaraq Gənclər və İdman Nazirliyindən bildirilib.

### MƏSUL ŞƏXSLƏRƏ XƏBƏRDARLIQ EDİLİB

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, cavab məktubunda Beynəlxalq Olimpiya Komitəsi Paris-2024 Yay Olimpiya Oyunlarının açılış mərasiminin şərhi zamanı “France2” telekanalının müxbirinin işlətdiyi ifadələrə görə Azərbaycandan üzr istəyib.

Məktubda deyilir: “BOK-un prezidenti cənab Tomas Baxa ünvanlanmış 27 iyul 2024-cü il tarixli məktubunuz üçün təşəkkür edirik. Fürsətdən istifadə edərək, Paris-2024 Olimpiya Oyunlarının Açılış Mərasiminin təkrar yayımı zamanı “France2” televiziyasının müxbirlərinin işlətdiyi ifadələrə görə sizə ən səmimi üzrxahlığımızı çatdırmaq istərdik. Bu cür ifadələr Beynəlxalq Olimpiya Komitəsinin idman və Olimpiya Oyunları vasitəsilə təbliğ etdiyi prinsiplərə və dəyərlərə uyğun gəlmir. Ona görə də biz bütün məsul şəxslərlə əlaqə saxlayıb onlara öz prinsiplərimizi və iş protokollarımızı xatırlatmışıq”.



Tomas Bax



## PARİS DƏ ÜZR İSTƏMƏLİDİR

Məktubda bildirilir ki, Azərbaycan gələcəkdə oxşar ifadələrdən istifadə edilməməsi üçün aydın göstərişlərin çatdırıldığından əmin ola bilər: “Anlayışınıza görə çox minnətdarıq və 2024-cü il Paris Olimpiya Oyunları zamanı idmançılarınızın uğurlu nəticələr qazanması üçün hər şeyin ən yaxşısını arzu edirik”.

“Paris-2024 Yay Olimpiya Oyunlarının yayımçısı olan “France2” telekanalının ölkəmizə qarşı tutduğu qərəzli mövqeyə və bu hadisədən Beynəlxalq Olimpiya Komitəsinin Azərbaycana üzrxahlıq məktubunu nəzərə alaraq, Fransa hökumətinin də Azərbaycandan rəsmi üzr istəməsini gözləyirik”, - nazirlikdən bildirilib.

## BAŞLICA GÜNAHKAR MAKRON FRANSASIDIR

Qeyd edək ki, məlum təxribatda başlıca günahkar əslində Makron Fransasıdır. 2020-ci il tarixi qələbəmizdən sonra hər fürsətdə Azərbaycanı hədəfə alan Paris bu dəfə idmanı özünün çirkin siyasətinə alət etdi. Bununla bağlı açılış mərasimindən dərhal sonra Azərbaycanın müvafiq qurumları Beynəlxalq Olimpiya Komitəsinə müraciət edərək kəskin etirazını bildirdi.

Xatırladaq ki, iyulun 26-da Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarının açılış mərasimində Fransanın dövlətə məxsus milli televiziyası olan “France2” telekanalının müxbiri Azərbaycan və Ermənistan idmançılarının paraddan keçidi zamanı ayrı-seçkilik nümayiş etdirərək Azərbaycanı Ermənistanla toqquşmalarda ittiham edib. Eyni zamanda Ermənistanı Fransanın dostu adlandırıb və qeyd edib ki, bu il erməni xalqı üçün “Dağlıq Qarabağ”ın Azərbaycan ordusu tərəfindən süqutu kimi yadda qalıb.

# ZƏNGƏZUR DƏHLİZİ DÜYÜNÜ ÇÖZÜLÜR

Okeanın o tayından başlayaraq Pekinə qədər hər kəsin maraqlarına xidmət edəcək Zəngəzur dəhlizinin düyünü, deyəsən, artıq çözülmək üzrədir. İndi əsas olan Ermənistan rəhbərliyinin siyasi iradə və qətiyyət nümayiş etdirməsidir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında müşahidə edilən dinamika yenidən diqqəti iki ölkə arasında kommunikasiya əlaqələrinin bərpasına yönəldib. Beynəlxalq aləmdə yaşanan kataklizmlərin dünya ticarət yollarını ciddi şəkildə təhdid etməsinin fonunda Zəngəzur dəhlizinin əhəmiyyəti getdikcə artmaqdadır. Bu dəhlizin açılması bir-biriləri ilə ciddi fikir ayrılıqlarına baxmayaraq, hazırda əks qütbdə qərarlaşan güc mərkəzlərinin də maraqlarına cavab verir. Bu məsələdə İrəvan və Bakının baxışları fərqli olsa da, ümumi məqsədin hər kəsin xeyrinə olacağı şəksizdir. Lakin ümumi məqsədə aparan yolların uzlaşdırılması ciddi fikir ayrılıqları ilə müşahidə olunur. Təbii ki, bu amil bölgədə maraqlı olan qüvvələrin geosiyasi planlarının toqquşması fonunda vəziyyəti daha da qəlizləşdirir.

**BAKININ DƏQİQ VƏ AYDIN MÖVQEYİ**

Bakının Zəngəzur dəhlizi ilə bağlı mövqeyi aydın və dəqiqdir. Azərbaycan dəfələrlə bu məsələ ilə bağlı gözləntilərini ən ali səviyyədə açıqlayıb. Əgər İrəvan kommunikasiyaların bərpasını istəyirsə, o zaman Naxçıvan Muxtar Respublikası ilə dəmiryolu və avtomobil yolunun bərpasına Azərbaycanın müəyyənləşdirdiyi ən qısa məsafədə razılaşmalıdır. Bu yola nəzarət isə təhlükəsizlik baxımından üçüncü tərəfə həvalə edilməlidir. Ermənistan bunu "suveren hüquqlarının pozulması" kimi təqdim etməyə çalışsa da, dünyada Azərbaycanın təklif etdiyi modelin analoqları artıq uzun illərdir ki, uğurla fəaliyyət göstərir.

**MARAQLARIN TOQQUŞDUĞU MƏQAM**

Böyük güclərin maraqlarının toqquşduğu əsas məqam da Zəngəzur dəhlizinin Ermənistan üzərindən keçəcək hissəsinə nəzarətin kimin əlində olacağı ilə bağlıdır.

Təbii ki, əvvəlki planda dəhlizə nəzarətin Rusiyanın müvafiq qurumlarının əlində olacağı razılaşdırılmışdı. Lakin Ukrayna ilə müharibənin başlaması Qərbin Cənubi Qafqazda da Moskvanın mövqelərini zəifllətmək planlarını işə saldı. Nəticədə Ermənistan kuratorlarının tapşırığına əsasən, bu razılaşmaları gözardı edərək hər zaman olduğu kimi yenidən ikili oyun quraraq prosesi dalana dirədi. İndi isə ikitərəfli danışıqlarda əldə edilən irəliləyişlər fonunda biz Qərb diplomatlarının yenidən Zəngəzur dəhlizinə dair açıqlamalarını müşahidə etməkdəyik.

## MƏRKƏZİ ASİYA ÜÇÜN QLOBAL BAZARA ÇIXIŞ

ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn Senatın Xarici əlaqələr komitəsində çıxışı zamanı bildirib ki, Vaşinqton Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyanın apardıqları sülh prosesini güclü şəkildə dəstəkləyir. O bildirib ki, tərəflərin sülh istəyi sülh sazişi ilə nəticələnə bilər. "Bu, niyə vacibdir? Xəritəyə baxanda görürük ki, Mərkəzi Asiya inanılmaz dərəcədə zəngindir, lakin onların qlobal bazara çıxışı yalnız Rusiya və Çin vasitəsilə mümkündür. Əgər biz Azərbaycan və Ermənistandan keçən yolun açılmasına nail olsaq, onların qlobal bazara çıxışı olar, Rusiya və Çindən asılılıqları azalar", - deyə Ceyms O'Brayn əlavə edib.

Göründüyü kimi, Vaşinqtonun marağı Cənubi Qafqaz və Mərkəzi Asiyada ənənəvi rəqibləri Çin və Rusiyaya qarşıdır. Vaşinqton hər vasitə ilə Zəngəzur dəhlizinə nəzarətin bu iki ölkənin əlində olmamasına çalışır.

**İRANIN "QIRMIZI XƏTTİ"**

Vaxtilə prosesi dalana dirəyən və Ermənistanı əvvəlki razılaşmalardan imtinaya sövq edən ölkələrdən biri də İrandır. Maraqlıdır ki, bu məsələ ilə bağlı Qərb tərəfindən səsləndirilən bəyanatların fonunda İran da ən yüksək səviyyədə Zəngəzur dəhlizinə qarşı olduğunu bir daha bəyan edib. Belə ki, İranın ali dini rəhbəri Ayətullah Seyid Əli Xamenei iyunun 30-da Tehrana gələn Ermənistanın baş naziri Nikol Paşinyanı qəbul edib. Ayətullah Xamenei Ermənistanın ərazi bütövlüyünün qorunmasının vacibliyini vurğulayıb. O, "İran İslam Respublikası Zəngəzur dəhlizini Ermənistanın zərərinə görür və bu münasibətdə qətiyyətlidir" deyib. Xameneinin bu fikrini Nikol Paşinyan da dəstəkləyib. Bir daha Ermənistan ərazisindən hansısa dəhlizin yaradılmasına imkan verməyəcəklərini bildirib.


Ceyms O'Brayn
Seyid Əli Xamenei

## SÜLH SAZİŞİNİ TAMAMLAYACAQ YEKUN ADDIM

Bu məsələdə Azərbaycanın ən böyük dəstəkçisinin Türkiyə olduğu şəksizdir. Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın bir müddət əvvəl Zəngəzur dəhlizinin açılması ilə bağlı səsləndirdiyi bəyanat proseslərin dinamik hal aldığı indiki məqamda diqqət çəkir. Ərdoğan Bakı ilə İrəvan arasında tam hüquqlu sülh sazişi bağlandıqdan sonra Türkiyənin Ermənistanla sərhədi aça biləcəyini istisna etməyib və bildirib ki, Zəngəzur dəhlizinin açılması sazişi tamamlayacaq yekun addımdır. "Zəngəzur dəhlizi hər kəsə, xüsusilə Azərbaycan, Ermənistan və İrana fayda verəcək strateji marşrutdur. İran və Azərbaycan hiss edəcəklər ki, dəhliz, dəmir yolu xətti işə düşəndə onlar üçün daha asan olacaq", - deyə o bildirib.

Göründüyü kimi, okeanın o tayından başlayaraq Pekinə qədər hər kəsin maraqlarına xidmət edəcək Zəngəzur dəhlizinin düyünü, deyəsən, artıq çözülmək üzrədir. Bu düyünün açılması üçün isə əsas olan Ermənistan rəhbərliyinin siyasi iradə və qətiyyət nümayiş etdirməsidir. Bölgədə sülhə, iqtisadi inkişafa və inteqrasiyaya xidmət edəcək Zəngəzur dəhlizi təşəbbüsü maraqların toqquşduğu yox, uzlaşdığı və hər kəsin faydalana biləcəyi bir layihədir.



MAKRON FRANSASI BEYNƏLXALQ MÜSTƏVİDƏ BİABIR OLUR

# BEYNƏLXALQ ƏHƏMİYYƏTLİ BAŞAĞRISI




**FRANSA SİYASİ ELİTASININ ƏXLAQ PROBLEMİ**

İndi Fransanı tək keçmiş və hazırkı müstəmləkələri, müsəlman və türk dünyası deyil, Vatikandan tutmuş ABŞ prezidentliyinə namizəd Donald Trampa qədər hamı tənqid atəşinə tutur.



RÜSTƏM QARAXANLI

Parisdə keçirilən Yay Olimpiya oyunları rəsmi Paris üçün daha bir beynəlxalq əhəmiyyətli başağrısına çevrilib. İndi Fransanı tək keçmiş və hazırkı müstəmləkələri, müsəlman və türk dünyası deyil, Vatikandan tutmuş ABŞ prezidentliyinə namizəd Donald Trampa qədər hamı tənqid atəşinə tutur. Hərdən elə təəssürat yaranır ki, sanki reputasiya və imic bahasına başa gələn bütün bu qüsurlar qəsdlə edilir. Bu qədər yanlışlığa hər hansı dövlətin rəhbərliyi istəsə belə, yol verə bilməzdi. Makron Fransasının beynəlxalq müstəvidəki əsas problemi ondan ibarətdir ki, özünün dünyada baş verən proseslərə baxışı, həyat tərzi və yanaşmasını zorla bir standart, yaxud ölçü vahidi kimi qəbul etdirmək istəyir. Bu barədə xəyallar qurmaq Napoleon dövründən fərqli olaraq, Emmanuel Makronun hakimiyyəti illərində nəinki mümkün deyil, hətta gülüncdür.

**TULLANTI GİRDABINDA İDMAN YARIŞLARI**

Fransa paytaxtında keçiriləcək bir nömrəli idman hadisəsinin qüsurlu olacağına dair ehtimallar özünü olimpiada ərəfəsində deyil, aylar öncə büruzə verməyə başlamışdı. Ölkədəki idarəçilik xaosu, dərin sosial böhran, iqtisadi tənəzzülün göstəriciləri, Parisin tullantı girdabında çabalaması baş verəcək kollapsın əlamətləri idi. Makron hakimiyyətinin bu və ya digər ölkələrə münasibətdə birtərəfli simpatiyası xarici siyasətdə izlənən ardıcıl uğursuzluqlara yol açmış əsas faktor rolunda çıxış edir. Makron hakimiyyətinin siyasi narsismi, aşırı eqosu nəticəsiz qala bilməzdi ki, biz beynəlxalq idman ictimaiyyətinin hər gün səsləndirdiyi müxtəlif məzmunlu narazılıqlardan bir daha bunun şahidi oluruq.

Sosial tələblərlə çıxış edən sıravi fransalını polis dəyənəyi və gözyaşardıcı qazla boğan rəsmi Parisin xoşu gəlməyən ölkə və xalqlara qarşı aşırı ayrımçılıq nümayiş etdirməsi qəbuledilməzdir. Makron hakimiyyəti reallıqdan o qədər uzaq düşüb ki, özünün dünyaya baxışı, həyat fəlsəfəsini beynəlxalq idman ictimaiyyətinin 4 ildən bir səbirsizliklə gözlədiyi idman hadisəsinə belə yansıtmaqdan usanmır. Paris olimpiadasının qalmaqallı açılış mərasimi etika və beynəlxalq ədəb, yüzmilyonlarla insanın dini inanclarına münasibətdə təhqir olmaqla yanaşı, Fransanı idarə edən siyasi elitanın hansı əxlaqi uçurumda olması barədə aydın təsəvvür yaradır. Makronun ən böyük və bağışlanmaz qüsuru ondan ibarətdir ki, bu əxlaq kasadlığını bir dəyər kimi qəbul edir və digərlərinə də aşılamaq istəyir.

Açılış mərasimində təşkilatçıların dini mövzuya qeyri-ənənəvi yanaşmalarını bütün dünyaya təlqin etmək cəhdi Fransa dövləti və ictimaiyyətinin kollektiv qüsurudur. Adi vaxtda təsəvvür etmək belə çətin olardı ki, nə vaxtsa dünyanın ən xristian ölkəsi olmuş Fransa xristian aləminin hissləri ilə oynadığına görə müsəlman cəmiyyəti tərəfindən tənqidlərə məruz qalır. Görəsən elə bir idarəçilik sferası qalıbmı ki, Makron hökumətinin yol verdiyi səhvlər orada da təkrarlanmasın?



**BUMERANQ**

Olimpiadanın birbaşa təşkilati problemlərinə ətraflı toxunmamaq şərti ilə bir sıra məqamların üzərində dayanmağa ehtiyac var. 2015-ci ildə Bakıda mükəmməl şəkildə keçirilən Avropa oyunları ərəfəsində Qərb dünyası tərəfindən Azərbaycanın ünvanına yönələn haqsız və qərəzli kampaniyanı unutmamışıq. İstənilən xırda detaldan bir problem çıxarmaq üçün proqramlaşdırılmış və köklənmiş Avropa KİV-i və ictimai rəyi şübhə yoxdur ki, bu gün Parisdə təşkil olunan qlobal idman tədbirini yaxından izləyir. Bu gün Fransanın yol verdiyi qüsurlar və qarşılaşdığı problemlər 9 il öncə kollektiv Qərb ictimai rəyinin ədalətsiz mövqeyinin bumeranq effekti ilə geri dönməsidir. Fransız cəmiyyətinin başda hökumət və siyasi elita olmaqla düşdüyü dərin əxlaqi-etik böhran bütün Qərbin reallığıdır.

Bu kontekstdə olduqca ciddi geosiyasi amili unutmamaq lazımdır. Fransanın keçmiş Qarabağ problemi ilə bağlı Azərbaycana qarşı qərəzli mövqeyi və davranışı hər birimizə məlumdur. Bu ölkənin ümumdövlət psixozunun ən fəal təmsilçilərindən biri də prezident Makronla yanaşı, Parisin meri Ann İdalqo idi. Xüsusi heyətlərlə İrəvana səfərə gəlir, "ərzaq yardımı" ilə dövlət sərhədimizə yürüş edib siyasi avantüranın önündə dururdu. Onsuz da mürəkkəb olan dövlətlərarası münasibətlərə hər cür xələl gətirən İdalqo özünü və ölkəsini insan haqları carçısı pozasında təqdim edirdi. Bu gün isə bütün dünya ictimaiyyətini Parisin ortasından keçən və günümüzün ən çirklənmiş su hövzələrindən biri olaraq ad çıxarmış Sena çayının yarışlar üçün hazır olduğuna dair yalanlar söyləyir. Görəsən, Qərb cəmiyyətində kimsə öz xalqı ilə yanaşı, qlobal idman ictimaiyyətini də aldadan bir şəxsin, şəhər rəhbərinin və hökumətin son 4 ildə nümayiş etdirdiyi süni insan haqları müdafiəçisi, ermənipərəst, anti-Azərbaycan və antitürk siyasəti barədə düşünübmü?

Sual açıq olaraq qalır. Biz isə cavabımızı mübarizə meydanında veririk, Paris olimpiadasında fransız idmançının kürəyini yerə vuraraq bayrağımızı qaldırır, himnimizi səsləndiririk. Oyunların qalibi olmuş cüdoçumuz Hidayət Heydərovun dediyi kimi, biz qalib xalqın övladlarıyıq!

# PAŞİNYANI QORUMAQ ÜÇÜN CIZILAN PLANLAR



**"Eagle partner -2024" ABŞ-Ermənistan hərbi təlimlərində bölmələrə dəyənək və qalxanla şərti düşməni sıxışdırmaq öyrədilir. Buradan çıxan nəticə odur ki, ABŞ və Avropa İttifaqı erməni müxalifətinin payızda keçiriləcək aksiyalarına görə ciddi narahatdırlar.**

FUAD ABASOĞLU

ABŞ-nin son dövrlər Ermənistana "xüsusi qayğı" ilə yanaşması İrəvanda hökumət tərəfdarları tərəfindən guya iki ölkə arasında strateji əlaqələrin inkişafı kimi dəyərləndirilir. Reallıqda isə heç kimə sirr deyil ki, Vaşinqton erməni dövlətindən Cənubi Qafqazdakı geosiyasi maraqlarını təmin etmək üçün plasdarm kimi istifadə edir. Ermənistana edilən yardımlar və bu günlərdə reallaşdırılan birgə hərbi təlimlər də bu məqsədə xidmət edir.

Ermənistanın siyasi rəhbərliyi amerikalı hərbçilərlə birlikdə keçirilən "Eagle partner-2024" təlimlərini hərbi sahədə analoqu olmayan uğur kimi sırımağa çalışır. İrəvanın bəzi təbliğatçıları nə qədər gülünc olsa da iddia edirlər ki, bu təlimlər Ermənistan ordusunu gücləndirəcək və bu, guya Azərbaycanı cilovlayacaq.

## MEDALYONUN BAŞQA ÜZÜNÜN OLDUĞU ÜZƏ ÇIXIR

Qeyd edək ki, sözügedən təlimlərə Ermənistan silahlı qüvvələrinin sülhməramlı briqadası, ABŞ-nin Avropa və Afrikadakı quru qoşunlarının hərbçiləri və Kanzas milli qvardiyası cəlb edilib. Təlimlərlə bağlı ilk xəbərlərdən sonra Qərbin təbliğat maşınları işə salınıb. İddia edilir ki, təlimlər ağır vəziyyətdə olan erməni ordusunu dirçəltmək, ordunu Azərbaycanın istənilən hücumuna qarşı hazırlamaq məqsədi daşıyır. Amma diqqətlə izlədikdə görünür ki, təlimlərdə erməni ordusunun bölmələrinə dəyənək və qalxanla şərti düşməni sıxışdırmaq öyrədilir. Təlimlərin odlu silahdan istifadə edilən hissələri isə daha çox antiterror əməliyyatları təəssüratı yaradır. Bu da medalyonun başqa üzünün olduğunu üzə çıxarır.

### DƏYƏNƏK VƏ QALXANLI TƏLİM MÜXALİFƏTƏ QARŞI YÖNƏLİB

Məntiqlə yanaşsaq, Ermənistan ordusunun dəyənək və qalxanla döyüşməsi mümkünsüzdür. Çünki cəbhə xəttində adətən dəyənək və qalxan lazım olmur. Belə çıxır ki, təlimlər daha çox Paşinyanın erməni xalqının narazılığını yatırmasına yönəlib. Məqsədlərdən biri də ordu qüvvələrini kütləvi aksiyaların yatırılmasına hazırlamaqdır. Bu məntiqlə yanaşsaq, təlimlərdə niyə dəyənək və qalxanlardan istifadə edildiyi aydınlaşır. Diqqətlə izlədikdə də görürük ki, Qərb əslində Paşinyana əsas təhlükənin daxildən gəldiyini anlayır. Təsadüfi deyil ki, son illər ərzində Qərb institutları tərəfindən Ermənistanda daxili təhlükəsizlik üçün yarım milyard dollara yaxın vəsait xərclənib.

## QHT-LƏRƏ VƏ MEDİAYA İNANILMAZ MADDİ DƏSTƏK

Avropa İttifaqı da hər il Ermənistana bu məqsədlərlə qrant şəklində 65 milyon avro ayırır. Müharibədən sonra ayrılan bu tipli vəsaitlərin həcmi 250 milyon avrodan çoxdur. Ermənistanın anti-Rusiya siyasətini davam etdirəcəyi təqdirdə əlavə olaraq daha 275 milyon dollar ayrılacağına da söz verilib. ABŞ tərəfindən vətəndaş cəmiyyətinin, medianın maliyyələşdirilməsinə təkcə bu il 30 milyon dollar xərclənib. Ümumilikdə, Aİ və ABŞ birlikdə müharibədən sonra Ermənistanda vətəndaş cəmiyyətinin yaradılması, saxlanılması, maliyyələşdirilməsi və polisin təlimi üçün 400 milyon dollardan çox vəsait yönəldiblər.

ABŞ və Aİ birlikdə Ermənistanda Polis Patrul Xidmətinin yaradılması üçün də külli miqdarda pul xərcləyiblər və proses hazırda da davam edir. Söhbət ən azı 30 milyon dollardan gedir. ABŞ və Aİ tərəfindən Polis Patrul Xidmətinə maddi-texniki dəstək də verilir. Məsələn, 2023-cü ildə Aİ Polis Patrul Xidmətinə yolsuzluq avtomobilləri də daxil olmaqla 75 "Şkoda" avtomobili bağışlayıb. Sözügedən polis bölməsinin yaradılmasında şəxsən Aİ təmsilçisi Daniel İoannisyan iştirak edib.

### SÜLH FONDUNUN "TULAPAYI"

Bu nəhəng vəsaitlərin fonunda bu yaxınlarda Aİ Ermənistana Sülh Fondundan 10 milyon avro ayırmağa qərar verdi. Məqsəd Ermənistana silah və sursat almaqda yardımçı olmaqdır. Fonddan ayrılacaq 10 milyon avro ilə bir batalyon üçün modul tipli səhra düşərgəsi yaradılması nəzərdə tutulur.

Bütün bunları ümumiləşdirsək, əminliklə belə bir qənaətə gəlmək olar ki, hazırda Qərb üçün prioritet Ermənistan cəmiyyətini, mediasını və vətəndaş cəmiyyətini nəzarətdə saxlamaqdır. Bu mümkün olmayanda isə cəmiyyəti təzyiq altında saxlamaq lazım gələcək. Bu işdə isə polis qüvvələri, erməni-amerikan hərbi təlimlərində dəyənək və qalxanlardan istifadə edən hərbçilər yardımçı olacaqlar. Görünür, payız aylarında İrəvanda və regionlarda erməni keşişlə müxalifətin keçirməyi planlaşdırdığı etiraz aksiyaları Qərbi ciddi narahat edir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# YAXIN ŞƏRQ YENƏ ÇALXALANIR

HƏMAS-ın siyasi qolunun lideri İsmayıl Haniyənin Tehranda sui-qəsdlə öldürülməsi dünyanı şoka salıb. İsrail sui-qəsdə görə ittihamları rədd edir, İran rəsmiləri isə bəyan ediblər ki, HƏMAS liderinin qisasını almaq onların borcudur.



AZƏR NURİYEV

İranda baş verən hadisələr dünyanın diqqətindədir. Prezident Məsud Pezeşkianın andiçmə gününün səhəri HƏMAS-ın Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin qətlə yetirilməsi tək regionu deyil, dünyanı şoka salıb. İlkin məlumatlara görə, Haniyənin gecələdiyi villaya İsrailə məxsus PUA raket zərbəsi endirib. Zərbənin İsrail Hərbi-Hava Qüvvələrinin F-35 təyyarəsi vasitəsilə endirildiyi barədə də iddialar var.

İsrail sui-qəsdə görə ittihamları rədd etsə də, buna önəm verən yoxdur. İran rəsmiləri artıq bəyan ediblər ki, İsmayıl Haniyənin qisasını almaq onların borcudur. İranın ali dini lideri ayətullah Əli Xamenei deyib ki, Haniyəni qətlə yetirməklə İsrail özü üçün ağır cəzaya zəmin yaratdı. İran rejimi üçün Haniyənin Tehranın tam mərkəzində öldürülməsi ikiqat biabırçılıqdır. Belə ki, Tehranı Qəzzadan, Ramallahdan daha təhlükəsiz bilənlər yanıldılar. Yəqin ki, bundan sonra Tehranda tədbir və toplantı keçirməkdən də ehtiyat edəcəklər. Bununla İranın təhlükəsiz olmadığının mesajı verildi. Bu, həm də ölkənin müdafiə və kəşfiyyat güclərinə, özünü regionun ağası sayan SEPAH-a xəbərdarlıq kimi qiymətləndirilir.



Hakkı Uyğur



## YENİCƏ AND İÇƏN PEZEŞKİANA MESAJ

Haniyənin qətlinin səbəbləri və kimlər tərəfindən törədilməsi ilə bağlı müxtəlif fikirlər səslənir. Qeyd olunur ki, bu, yenicə and içən islahatçı prezidentə müxtəlif dairələrin xəbərdarlığıdır. Digər bir ehtimal da odur ki, HƏMAS-ın hərbi qanadının Haniyə ilə münasibətlərində ciddi problemlər olub. Yaxın Şərqdə müharibənin alovlanmasını, Türkiyənin və İranın da münaqişəyə cəlb olunmasını istəyən qüvvələr də bunu edə bilərlər. Belə ki, Haniyənin Türkiyə hökuməti ilə də yaxın münasibətləri var idi və cibində Türkiyə pasportu daşıyırdı.

### İRANIN "QİSAS BAYRAĞI"

Qisas alınacağına gəldikdə, artıq Qumda Çəmkəran məscidində qırmızı bayraq qaldırılıb. Adətən, İranda qırmızı bayraq ağır itkilər və ya intiqam çağırışı zamanı qaldırılan qisas simvolu hesab olunur. Qırmızı bayrağı qaldırmaqla, İran Haniyənin qisasını alacağına diqqət çəkib. Qeyd edək ki, İran qırmızı bayrağı sonuncu dəfə bu ilin yanvarın 3-də Kirman vilayə-tində İŞİD-in törətdiyi terror aktından sonra qaldırmışdı.

### HANİYƏNİN XƏLƏFİ KİM OLACAQ?

İsmayıl Haniyənin öldürülməsindən sonra HƏMAS-ın yeni rəhbərinin kim olacağı ilə bağlı müxtəlif iddialar yayılmaqdadır. İsrail mediasında ən çox səslənən versiyalar arasında Xalid Məşalın adı çəkilir. Məlumata görə, Məşal 2025-ci ildə keçiriləcək seçkilərə qədər HƏMAS Siyasi Bürosunun rəhbəri vəzifəsini icra edəcək. Təşkilat daxilindəki müzakirələrdə də onun namizədliyi geniş dəstək görüb.

### BİR GÜNDƏ İKİ SUİ-QƏSD

İndi hər kəsi bir sual düşündürür. İsmayıl Haniyənin Tehranda öldürülməsi regional münaqişəyə çevrilə bilərmi? Əslində İsrail tərəfindən bu təhlükəni tətikləyən başqa addımlar da atılır. Haniyənin öldürülməsi ilə eyni gündə Livanda İranın əsas proksi qüvvəsi sayılan "Hizbullah"ın məşhur komandiri olmuş Fuad Şükür də aviazərbələr nəticəsində qətlə yetirilib. Hansı ki, o, mənsub olduğu təşkilatın lideri Həsən Nəsrullahın əsas adamı sayılırdı. Bütün bu hadisələr İran-İsrail-Fələstin oxunda hədəflərin dəyişəcəyi ehtimalını gücləndirir.



## ATƏŞKƏS ARXA PLANA KEÇDİ

Türkiyə Milli Kəşfiyyat Akademiyasının sədr müavini Hakkı Uyğur "Milliyyət"ə açıqlamasında bildirib ki, İranın təhlükəsizliyinə sızmaq yeni bir şey deyil. İranın Livan vasitəsilə qisas ala biləcəyini ifadə edən Uyğurun sözlərinə görə, Təl-Əvivlə Tehran arasında birbaşa toqquşma inandırıcı deyil. "Hizbullah" ın daha təsirli cavab verməsi ehtimalı yüksəkdir", - deyə o bildirib.

Ekspertlər İsrailin Haniyə sui-qəsdindən hansı məqsədlər üçün yararlanacağına, hədəflərinin nə olduğuna dair maraqlı məqamlara diqqət çəkiblər. İsrailin Baş naziri Benyamin Netanyahunun 7 oktyabrdan sonra bölgənin xəritələrinin dəyişəcəyini dediyini xatırladan türkiyəli ekspert Hakkı Uyğurun sözlərinə görə, Təl-Əviv bu hücumu regional dizayn üçün bir fürsət olaraq görür.

Sui-qəsdin həm də Təl-Əviv üzərində Qəzzada atəşkəs basqısını azaltmağa hesablandığını düşünənlər də var. Karnegi Fondunun Yaxın Şərq Mərkəzinin baş elmi işçisi, professor Abdullah Baabud atəşkəs danışıqlarına Haniyənin rəhbərlik etdiyini və bu prosesdə onun iştirakının vacib olduğunu vurğulayıb.

İranşünas Mehmet Koç isə bu qənaətdədir ki, Haniyə sui-qəsdində məqsəd İranı İsraillə birbaşa müharibəyə cəlb etməkdir. Netanyahunun ən başlıca hədəfi isə İranın hücumu fonunda ABŞ-nin bu müharibəyə daxil olmasına nail olmaqdır.



Abdullah Baabud

## ALİ TƏHSİLİN QİYMƏTİNİ MÜƏYYƏNLƏŞDİRƏN AMİLLƏR

# ARTIM QƏRARININ YARATDIĞI SUALLAR



**Azərbaycanda ali məktəblərin illik təhsil haqlarını artırmaq haqqında verdikləri qərar birmənalı qarşılanmayıb. Tələbələr, onların valideynləri bu qərardan narazıdırlar. Amma universitetlərə haqq qazandıranlar da var.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Ali məktəblərin illik təhsil haqqının artırılması ilə bağlı qərarları birmənalı olmayan fikirlərə yol açıb. Bəzi ali məktəblər müəyyən ixtisaslar üzrə qiymət artımını qismən həyata keçirmək istəyirsə, bəzilərində illik təhsil ödənişi bütün ixtisaslar üzrə qaldırılıb. Bu da tələbələr, onların valideynləri tərəfindən narazılıqla qarşılanıb.

Sual yaranır: ali təhsilin qiymətini hansı amillər müəyyənləşdirir? Ali məktəbləri qiymət artımına sövq edən təhsilin keyfiyyətinin, yoxsa universitetin daxili xərclərinin artmasıdır?

Ekspertlərin məsələyə yanaşması fərqlidir. Digər tərəfdən, təhsil haqqının qalxması tələbələri və valideynləri, xüsusən də maddi imkanları məhdud olanları narahat etməyə bilməz.

Elm və Təhsil Nazirliyindən "qiymət artımı universitetlərin daxili işidir" - deyə bildirdilər.

**TƏƏCCÜBLÜ DEYİL...**

Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı hesab edir ki, ali məktəblərdə təhsil haqqı artımı müntəzəm baş verir və davam edəcək: "Bu, heç də təhsilin keyfiyyəti ilə bağlı deyil. Sadəcə, təhsilverənlər görəndə ki, təhsil haqqını bir az daha artıq almaq mümkündür və alanda imkanları daha da böyüyür, o zaman bu addımı atırlar. Bu baxımdan, burada təəccüblü heç nə yoxdur. Bu, valideynlə müqavilə bağlananda da qeyd edilir. Adətən, müqavilə bir illik olur və universitetlərin növbəti tədris ilində buna yenidən baxmağa ixtiyarları var. Təhsil haqqı zaman-zaman artacaq. Çünki dünyada təhsil haqları çox yüksəkdir. Avropada, İngiltərədə, ABŞ-də təhsil haqlarına nəzər salsanız, rəqəmin 20-40 min arası dəyişdiyini görərsiniz. Onlarla müqayisədə bizdə təhsil haqları çox aşağıdır. Təbii ki, bu, bazara görə tənzimlənir. O ali məktəblərdə dünyanın hər yerindən oxumaq istəyənlər çox olduğuna görə onlar yüksək təhsil haqqı müyyənləşdirirlər".

**BİZ İTİRİRİK...**

İqtisadçı ekspert Rəşad Həsənov təhsil haqlarının artmasını bütün sahələrdə qiymətlərin artmasının davamı kimi qiymətləndirir: "Amma problem ondan ibarətdir ki, bizim kifayət qədər kadr çatışmazlığımız var. Bizim ölkə resurs ölkəsidir. "Belə bir ölkədə ali təhsil nə üçün pulludur?" sualı ortaya çıxır. Resursun istismarından toplanan vəsaitin bir qismi ali təhsilin ödənişsiz olmasına yönəldilməlidir. Məsələn, Almaniyada insanların təhsilə vəsait ayırmaq imkanları da genişdir. Amma onlarda ali təhsil haqqı yoxdur. Bizdə də diqqət hökumətin bu istiqamətdə mövqeyinin təkmilləşməsinə yönəldilməlidir. Əgər universitetə "özünü maliyyələşdirməlisən" deyilirsə, ali məktəb də müəyyən bir reytinq toplamaq üçün məcburdur ki, xaricdə təhsil alan insanları işə götürsün, digər resursları təkmilləşdirsin və s. Belə olduğu təqdirdə universitet məcburdur ki, xərcləri vətəndaşın üzərinə yükləsin. Lap universitet qiyməti artırmasa da, biz illərdir görürük ki, nə qədər vətəndaş qəbul aldığı universitetdə təhsil haqqını ödəyə bilmir".

## TÜRKİYƏDƏ TƏHSİL ALMAQ DAHA UCUZ BAŞA GƏLİR

Ekspert bizim ali məktəblərlə müqayisədə Türkiyədə təhsil almağın daha ucuz başa gəldiyini təsdiqləyir: "Türkiyədə bir çox ali məktəblərdə təhsil haqqı rəmzidir, məsələn, 400-1000 AZN arası dəyişir. Həmçinin onlar daha asan şərtlərlə qəbul keçirir, yataqxana xidməti və s. təklif edirlər. Belə olanda gənclərin axını bu istiqamətə yönəlir. Prosesin sonunda ölkəmizdə 100 adam təhsil alacaqdısa, 80-90 adam təhsil alacaq. Yəni ümumi nəticədə biz itiririk".

**KASIB VƏ İSTEDADLI TƏLƏBƏLƏR ÜÇÜN MÜXTƏLİF SXEMLƏR**

Kembric Universitetinin professoru Qərib Mürşüdov isə qiymət artımına görə universitetləri qınamır. Onun fikrincə, təhsil maliyyə tələb edir. Müxtəlif ölkələr bu problemi müxtəlif üsul ilə həll edirlər: "2014-cü ildən Almaniyanın 16 ştatında təhsil pulsuzdur. Bu ştatlarda tələbələr cüzi administrasiya haqqı ödəyirlər. İngiltərə və Şotlandiyada isə sistem fərqlidir. Əksər universitetlərdə daxili tələbələr üçün təhsil haqqı 9000 funt sterlinqdən bir qədər çoxdur. Əgər tələbələrin təhsil haqqı verməyə imkanı yoxdursa, onda onlar tələbə krediti götürürlər və borcu iş tapandan və maaşları müəyyən məbləğdən çox olandan sonra ödəməyə başlayırlar". Alim bildirir ki, ABŞ dövlət universitetlərinin təhsil haqqı özəl universitetlərlə müqayisədə aşağıdır (təqribən ildə 5000 $ dövlət, 20000-50000 $ özəl universitetlər). Dövlət universitetləri həmin ştatdan olan tələbələr üçün daha ucuzdur. Varlı universitetlərdə kasıb və istedadlı tələbələr üçün müxtəlif sxemlər olur. Avropa İttifaqı ölkələrində və Britaniyada dövlət universitetlərinin təhsil haqqını dövlət, özəl universitetlər isə özləri tənzimləyirlər".



Hamlet İsaxanlı
Qərib Mürşüdov
Rəşad Həsənov

**KEYFİYYƏTLİ TƏHSİL KÜLLİ MİQDARDA MALİYYƏ TƏLƏB EDİR**

Q.Mürşüdovun sözlərinə görə, ümumiyyətlə, ali təhsil çox az ölkələrdə pulsuzdur. Belə ki, universitetlərdə keyfiyyətli təhsil külli miqdarda maliyyə tələb edir: "Ola bilər ki, Azərbaycanda bütün əksər universitetlərin keyfiyyətini yuxarı qaldırmaq üçün bir neçə milyard dollar lazım gəlsin. Universitet infrastrukturu, avadanlıqlar və müəllimlər heyətinin maaşları hansısa mənbədən ödənməlidir. Digər tərəfdən, maliyyə birbaşa sənayedən gəlir. Buna nail olmaq üçün iqtisadiyyat kifayət qədər inkişaf etmiş olmalıdır. Bu, həm maraqlı, həm həddən artıq çətin, həm də ölkə üçün çox vacib problemdir. Buna yanaşma ölkənin gələcəyinə yanaşma ilə birbaşa əlaqəlidir".

PEŞƏKAR Kaspi


MİLLİ KİNO GÜNÜNDƏ KİNOREJİSSOR, SSENARİST YAVƏR RZAYEVLƏ KİNOMUZUN PROBLEMLƏRİNDƏN DANIŞMIŞIQ

# "BİZİM KİNEMATOQRAF GƏRƏK POEZİYADAN BƏHRƏLƏNSİN"






**Yavər Rzayev:** "Bizim milli dəyərlər var, kinematoqraf onun yolunu tapmalıdır. Bu, rejissorun intellektindən, biliyindən, istəyindən asılıdır. İnanıram ki, belə istedadlı uşaqlar var, bu yolla öz sözlərini deyəcəklər".



Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

"Milli Kino Günüdür. Kimlə görüşək?" Ağıla ilk gələn o oldu: Yavər Rzayev. "Milli kinomuzun gerçək vəziyyətini ondan yaxşı bilən olmaz", - deyə düşündük. Deyəsən, yanılmamışıq...

Kinorejissor, ssenarist, aktyor, Əməkdar incəsənət xadimi Yavər Rzayevlə müsahibəmizdə kinematoqrafiyamızın vəziyyətinə nəzər salmağa çalışdıq.

**"SENZURA PİS ŞEY DEYİL"**

● **Yavər müəllim, kino niyə qəliz məsələdir?**

● Siz gəlməmişdən əvvəl mən də elə bunu düşünürdüm: kino niyə qəliz məsələdir? Kino başqa sənətlərin sintezidir. Yazıçı qələmi, kağızı, rəssam fırçanı, kətanı götürür, istədiyini yazır, çəkir... Amma kino bir neçə sənəti kombinə edir. Təəssüf ki, indi gənc nəsil kinoda başqa istiqamət seçib - yığcam süjet, bir-iki qəhrəman, ailə münaqişələri və s. Kütlənin ən aşağı təbəqəsi var ki, məncə, o tərbiyə olunmur. Tez-tez telekanallarda ailə məişət zəminində kriminal hadisələr göstərilir: ata oğulu, gəlin qayınananı, qardaş bacını öldürür. Bilmirəm, seriallara baxırlar, nədir? Amma bu, yaxşı hal deyil. Dövlət sifarişləri ilə kommersiya filmlərini ayırmaq lazımdır. Bunlar fərqli şeylərdir. Əgər dövlət sifariş edirsə, onun öz tələbləri olmalıdır.

● **Senzuranı nəzərdə tutursunuz?**

● Siz senzura nəyə deyirsiniz? Senzura pis şey deyil. Psixiatriya da insanı şizofreniyadan qoruyan yoldur. Söhbət dövlətdən gedir: demokratik, islam inancları olan dövlətdən. Yəni "mənim on milyon əhalim var, belə məsələlərə toxuna bilmərəm". Siz çox yaralı yerə toxundunuz. Düzdür, indi artıq bir az ümid var. Mədəniyyət Nazirliyində Kino Agentliyi (ARKA) yaranıb və onların istəyi böyükdür. Bilirsinizmi, bizim böyük alimlərimiz, filosoflarımız, yazıçılarımız, bəstəkarlarımız olub. Vaqif Mustafazadə, Lütfizadə, Nəriman Nərimanov, Qara Qarayev, Səttar Bəhlulzadə - bunlar hamısı dahi insanlardır. Bu siyahını uzatmaq da olar. Bu cür şəxsiyyətlərlə bağlı fərqli layihələr olmalıdır. Bu insanlar millətin dəyərləridir. Onların həyatını örnək kimi nümayiş etdirmək, insanları maarifləndirmək lazımdır.

**"MUSİQİ SUSUR, AMMA..."**

● **Hər il avqustun 2-də ənənəvi olaraq Milli Kino Gününü qeyd edirik. Səmimi olsaq, son illərin kinematoqrafik mənzərəsi haqda nə deyə bilərsiniz?**

● Səmimi olsaq... Belə bir söz var: "Toplar atılanda musiqi susur". Amma mən bir vurğu etmək istəyirəm: musiqi susur, amma ölmür. Dünya sivilizasiyasında gedən proseslər, xristianlıq sivilizasiyasının süqutu... Hər sivilizasiyanın başlanğıcdan sona qədər iki min il ömrü var. Bu dövr başa çatdı. Amma xristian sivilizasiyasının dalğası ilə getmək istəyənlər var. Siz senzura dediniz, amma mən tənqid deyirəm. Cavanların yanlış düşüncəsi nədir? Söhbət bisavad və ya bitərəflərdən gedir, hansı ki, kənara xoş gəlmək istəyirlər. Kənarda isə bizdən dağıdıcı şeylər istəyirlər. Düzdür, bu gənclərin arasında istedadlı olanlar da var. Söhbət olan kimi festivaldan danışırlar. Amma bilənlər bilir ki, 40-50 yaşı olmayan festival heç də festival deyil. Gənclər millilik axtarmaqdansa başqa təsirlərə meyl edirlər. Baxın İran kinematoqrafiyasına, dünyaya meydan oxuyurlar. Adi, sadə tarixçələrlə necə filmlər yaratdılar. Türk kinosunda Nuri Bilgə Ceylan Avropadan daha üstün sənət yaratdı. Azərbaycanın da öz milli filmi olmalıdır. Bizim kinematoqraf gərək poeziyadan bəhrələnsin. Axı poeziyanın da öz strukturu var. O kinematoqrafı bir az Sergey Paracanov eləmişdi. Bizə nə lazım olduğunu başa düşmək lazımdır. Ailə kökləri, milli dəyərləri, təhsil məsələlərini kinoya gətirmək lazımdır. Bunlar Qərbə də maraqlı olar. Onları cəlb edər ki, ötən əsrin əvvəlindən müsəlman ölkəsində opera-balet var, qadınlara seçki hüququ verilib.

● **Deməli, biz hələ də kinoda millilik məsələsini tapa biməmişik...**

● Mən inanıram ki, tapacağıq. Bəlkə indi kinematoqrafiya çox vacib məsələ deyil. Bəlkə çox başa düşülmür. Leninin "bütün incəsənət növlərindən bizim üçün ən vacibi kinodur" sözləri əhəmiyyətini itirməyib. Çünki 90 dəqiqə ərzində siz ədəbiyyatı göstərirsiniz, musiqini eşidirsiniz, dəyərləri görürsünüz. Bunlar çox vacib şeylərdir. Amma bu haqda düşünən yoxdur. Siz nə gözləyirsiniz? Mədəniyyət və İncəsənət Universitetinə 60-80 balla qəbul olunurlar. Mən bu ali məktəbdə oxuyanda ora düşmək o qədər də asan deyildi. Sonra Moskvada Kinematoqrafiya İnstitutunda oxuyanda ora ən nüfuzlu təhsil ocaqlarından biri idi. İndi çoxu uşağını xaricdə oxumağa göndərir. Əgər bu təhsil yeni texnologiyalarla bağlıdırsa, çox yaxşı! Qoy gedib Londonda, Kembricdə oxusunlar. Ancaq orada onlara Azərbaycanın fəlsəfəsi, milli dəyərləri haqqında heç kim mühazirə oxumayacaq.

> *"Oskar" alan filmlərin hamısı romanlar əsasında çəkilən filmlərdir. Əsas əhvalatdır, ssenaridir.*

**QƏRBDƏN GƏLƏN TRENDLƏR**

● **Kinorejissor Andrey Konçalovski bir müsahibəsində bütün dünyada kinoya münasibəti, məncə, gözəl şərh edib: "Marketinq, superulduz sözü çıxmamışdan kino incəsənət idi. "Super" sözündən sonra kino öldü. Müasir insana kino lazım deyil. Ona əyləncə, fast-food, "McDonald's" lazımdır..."**

● Yenə o söhbətə qayıdıram: bizim milli dəyərlər var, kinematoqraf onun yolunu tapmalıdır. Bu, rejissorun intellektindən, biliyindən, istəyindən asılıdır. İnanıram ki, belə istedadlı uşaqlar var, bu yolla öz sözlərini deyəcəklər. Yenə də burada 10 milyon insan və dövlət söhbəti var. Bizim dövlət nəylə unikaldır? Bizdə çox millətlər var. Multikulturalizm sözü necə yaranıb? Azərbaycan dünyaya nümunədir. Bu məkanda yaşayan xalqların dəyərləri nədir? Ləzgi, talış etnosundan, ümumən etnik rəngarənglikdən necə layihələr hazırlamaq olar? Hər bir millət özünəməxsus fərqli mədəniyyətin elementlərini, koloriti qoruyub saxlayıb. Biz gərək bunu kinematoqrafiyanın gücü ilə dünyaya çatdıraq. Biz mərkəzəqaçma funksiyaları eləməliyik.

● **Etiraf edək ki, zamanla, dövrün dəyişikliyi ilə, informasiya texnologiyaları basqısı ilə sıradan çıxmaqda olan peşələr, sahələr var. Bu dalğanın kinoya təsiri də olmaya bilməz...**

● Əlbəttə, o da var. Bu, biliyi dərinləşdirmir, amma yayır. Bir çox tanıdığım adamlarda internet təhsilinin olduğunu görürəm. "Kamyu" deyən kimi əlindəki mobil cihazda tapır. O beyində necə ideya püxtələşə bilər? Dünyada böyük proseslər, sistemləşmə gedir. Bu da qərbdən gələn trenddir. Amma bu iqtisadiyyat üçün sərfəlidir, incəsənət, mədəniyyət üçün yox. Bu keçid yumşaq olmalıdır, aqressiv yox. Əsas odur ki, bizim dövlət o zamana uyğun nəsil yaratsın.

**HAY-KÜYÜN İÇİNDƏ BATAN İDEYALAR...**

● **Filmoqrafiyanıza nəzər salanda filmlər arasında dörd-beş il fasilə var. Bu boşluğa rejissorun "nəfəsalması" deyirsiniz?**

● Yox, bu, rejissorun "nəfəsalması" deyil, ovaxtkı kino aparatının "nəfəsalması"dır. "Sarı gəlin"dən sonra mənim başıma çox iş gəldi. Yeddi il film çəkmədim. İndi onları xatırlamaq ağırdır. Mən həmişə deyirəm ki, 90-cı illər Azərbaycan kinosunun eniş dövrüdür. Amma Həsən Seyidbəylinin, Arif Babayevin filmləri o zaman dəyərli festivallara çıxa bilsəydi, nələr qazanmazdı... Bu filmlərdə hadisələr gözəl idi. "Sən niyə susursan?", "Telefonçu qız"... İtalyan neorealzminə bənzəyən əhvalatlardır. Kino ədəbiyyata qayıtmalıdır. Ona görə də mən həmişə deyirəm: əvvəlcə ssenarini qəbul edin. Bu, çox ciddi məsələdir. "Oskar" alan filmlərin hamısı romanlar əsasında çəkilən filmlərdir. Əsas əhvalatdır, ssenaridir.

● **"Sarı gəlin"dən sonra belə bir fikir demişdiniz: "Müharibə haqqında çəkilən ən gözəl filmlər məhz davanı görməyən rejissorların çəkdikləri filmlər olub". Bəs 44 günlük müharibə haqqında nə düşünürsünüz?**

● Bir-iki ideyam var, amma hamısı bu hay-küyün içində batır. Bir neçə layihə var ki, mən utana-utana kiməsə "məndə bu var" deyirəm. Nəticəni gözləyirəm...

● **Sizcə, büdcəsi böyük olan filmlər yaradıcılıq azadlığını genişləndirir?**

● Çox gözəl sualdır... Yenə məsələ dövlət sifarişinə dirənir. Elxan Cəfərovun çəkdiyi "Yarımçıq xatirələr" filmində mən ssenari müəlliflərindən biriyəm. Film dövlət sifarişidir. Brest qalasını faşistlərdən qəhrəmancasına qorumuş və 50 ildən sonra doğma Dağlıq Qarabağını erməni işğalçılarından müdafiə etməyə qalxmış bir əsgərin qəhrəmanlığından bəhs edir. Bu büdcə ucuz ola bilməz. Amma Baydarov "Səpələnmiş ölümlər arasında" filmini poeziyanın üstündə qurmaq istəmişdi. O, filmi bəlkə 5-10 min dollara çəkmişdi və Venesiya Film Festivalında nümayiş olundu. Yəni kiçik büdcə ilə də çəkib söz demək olur.



Fotolar: Rüfət Mikayılov/Global Media Group



## "BACARIRSAN, BU FIRÇA, BU DA KƏTAN..."

● **Sizcə, rejissor peşəsini öyrətmək lazımdırmı? Yoxsa, rejissor olmaq istəyən fransız rejissoru Jan Qodar kimi sadəcə olaraq kameranı götürüb çəkilişlərə başlamalıdır?**

● Bəli, rejissorluq peşəsini öyrənmək mütləq lazımdır. Elə Qodarı nümunə gətirək: 60-cı illərdə orada bir qiyam baş verdi: Qodar, Trüffo... Ümumiyyətlə, Fellinidən sonra kino mənim üçün getdi. O, qəbiristanlıqda tabuta sonuncu mıxları vurandı. Amma kino-əsərlər olmalıdır. İndi kommersiya filmləri çəkirlər. Oyuncaq kimidir. Onlardan xalqa böyük bir təsir gözləmək olmaz. Forma və məzmun həmişə əsasdır.

● **Son illər "Oskar" alan filmlər haqqında fikirləriniz də maraqlıdır.**

● Gözəl filmlər var. Onların əsasında roman dayanır. Sadəcə, "Hər şey hər yerdə və dərhal" filmi məni çaşdırdı. Bəlkə də sonra başa düşdüm ki, bu ssenarini süni intellekt yazıb. Eksperiment kimi çəkilib. Mənim çoxdan bir fikrim vardı, "Yeni dalğa"da eləmişdim, bəlkə də onu təzələdim: qrafikasız - təmiz kino. Bacarırsan, bu fırça, bu da kətan...

● **Bu tablonu yaratmaq indi çətindir?**

● Çətin deyil, amma mövzu axtarışı cavanlarda düzgün istiqamətdə deyil.

● **Siz "cavanlar" deyib, elə bil yükü öz üzərinizdən atmaq istəyirsiniz...**

● Yox, mən çəkmək istəyirəm. 1-2 ssenarim də var. Bu haqda müraciət etmişəm...

● **Yavər müəllim, çox istərdim müsahibəmizi optimist notlarla bitirək...**

● Kino Agentliyinin yaradılması, onlara səlahiyyət verilməsi məndə ümidlər yaradıb ki, kinostudiya dirçələcək, əvvəlki dövrünə qayıdacaq. Burada həmin emalatxanalar yaranacaq. İnanıram ki, olacaq, sadəcə, bir az dözmək lazımdır. Ona görə deyirəm ki, toplar atılanda musiqi susur, amma ölməməlidir...

DÜNYADA KƏRƏ YAĞLARININ İSTEHSALINDA AZALMA MÜŞAHİDƏ OLUNUR

# KƏRƏ YAĞINI BAHALAŞDIRAN SƏBƏBLƏR

Kərə yağının qiymətlərində artım müşahidə edilir. Ekspertlər bunu idxal amilləri ilə əlaqələndirirlər. Qiymətləri tənzimləmək istəyiriksə, yerli istehsalı inkişaf etdirməliyik.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Ölkəmizdə satılan kərə yağlarının qiyməti bahalaşıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, yanvar ayında yerli kərə yağının bir kiloqramının orta aylıq pərakəndə satış qiyməti 18,91 manat idisə, may ayında bu rəqəm 19,36 manata çatıb. Beləliklə, may ayında ilin əvvəli ilə müqayisədə yerli kərə yağının qiyməti 2,3 faiz bahalaşıb. Kərə yağının bahalaşmasına səbəb nədir?

### İDXALDAN ASILILIQ

Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü Azər Badamov kərə yağının qiymətinin bahalaşmasını dünyada baş verən proseslərlə əlaqələndirdi: “Kərə yağının bahalaşması idxal olunan yağların və yağ xammalının dünya bazarında qiymətlərinin artması ilə bağlıdır. Ümumiyyətlə, dünyada kərə yağlarının istehsalında azalma müşahidə olunur. Bu azalma iqlim dəyişiklikləri və dünya iqtisadiyyatında yaşanan çətinliklərlə bağlıdır. İdxal olunan malların qiymətləri dünya bazarlarındakı qiymətlərdən asılıdır”.

### QİYMƏTLƏRİ BAZAR MÜƏYYƏNLƏŞDİRİR

A.Badamov bildirdi ki, yerli istehsalı inkişaf etdirmək lazımdır: “Ölkəmizdə kərə yağının istehsalı isə aşağı həddədir. Çünki maldarlıq təsərrüfatlarımız kifayət qədər inkişaf etməyib. Bu baxımdan, dövlətin qarşısında dayanan vəzifələrdən biri də ölkədaxili tələbatın ödənilməsində idxaldan asılılığı minimuma endirməkdir. Kərə yağı və digər kənd təsərrüfatı məhsullarının qiymətlərinin artmaması üçün mütləq şəkildə daxili istehsalımızı artıra biləcək addımların atılması vacibdir. Unutmayaq ki, bazar iqtisadiyyatıdır. Qiymətləri dövlət yox, bazar müəyyənləşdirir. Dövlət kərə yağının qiymətinin artmasına və ya azalmasına təsir göstərə bilməz”.



Azər Badamov

### İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏR BİZİ XİLAS EDƏCƏK

Deputat perspektivdə gözləntilərin pozitiv olduğunu deyir: “Çünki işğaldan azad olunmuş ərazilərdə yeni aqroparklar salınır. Bu da yeni ətlik və südlük təsərrüfatların inkişaf etdirilməsinə imkan yaradacaq. Əgər biz işğaldan azad olunmuş əraziləri konsolidasiya olunmuş təsərrüfatların yaradılmasına yönəltsək və bu təsərrüfatların qarşısında maldarlığın inkişaf etdirilməsi kimi bir tələb qoyularsa, daxili bazarda məhsul bolluğu yaranacaq. Məhsul bolluğunun yaranması da qiymətlərin formalaşmasına təsir göstərir. Çıxış yolu maldarlıq təsərrüfatlarının inkişaf etdirilməsi üçün dövlət dəstəyini genişləndirməklə fermerləri stimullaşdırmaqdan ibarətdir”.




## “MARKETLƏR QİYMƏTİ QALDIRIR”

Azad İstehlakçılar İctimai Birliyinin sədri Eyyub Hüseynov isə keyfiyyətli kərə yağınının qiymətinin yüksək olmalı olduğunu düşünür: “Normal kərə yağı əldə etmək üçün 20 litr orta yağlılıq dərəcəsi olan süd lazımdır. Əslində kərə yağının qiyməti 19-20 manat olmalıdır. Azərbaycan bazarı dünya bazarından asılıdır. Amma qiymətlərin yüksək olmasında marketlərin də rolu var. Onlar qiyməti istədikləri şəkildə qaldıra bilirlər. Bazarımızda qiymətlər razılaşma əsasında təyin olunur. Yerli kərə yağı istehsalımız mövcuddur, lakin daxili bazarımızı tələbatını ödəyə bilmir. Tələbatın yalnız 30 faizini təmin edə bilir. Bu səbəbdən xarici ölkələrdən kərə yağı gətirilir. Yaxşı olardı ki, yerli istehsal daha da inkişaf etdirilsin”.



Eyyub Hüseynov

## İDXALI ARTIRMALIYIQ

E.Hüseynovun fikrincə, kərə yağı idxal etdiyimiz ölkələrin sayını artırsaq, qiymətləri tənzimləmək mümkün olacaq: “Yeni Zelandiyada Azərbaycana yağ göndərən zavodda, onlara süd verən təsərrüfatlarda oldum. Məlum oldu ki, orada heyvanlar daim otlaqlarda olurlar. Bu səbəbdən onlarda yağ daha ucuz başa gəlir. Həmçinin, Azərbaycana Almaniyadan da yağ göndərilir. Niderland, Peru kimi kənd təsərrüfatı inkişaf etmiş ölkələr mövcuddur. Azad bazar şəraitinin bütün imkanlarından istifadə etmək lazımdır ki, daha çox xarici ölkələrdən yağ idxal olunsun. Belə olarsa, yağın qiymətində azalma baş verə bilər”.

## YERLİ İSTEHSALDA SAHİBKARLIĞIN İNKİŞAFININ QAYĞISINA QALMALIYIQ

İqtisadçı Pərviz Heydərovun sözlərinə görə, daxili xammalla yerli kərə yağı istehsal edə bilmirik: “Qiymət fərqliliyini ortaya çıxaran məhz idxal faktorudur. Yerli istehsalda da xammal idxal hesabına təmin olunur. Sırf daxili xammal hesabına kərə yağı istehsalı mümkün deyil. Dünyada xammalın da qiymətində artım müşahidə edilir. Ona görə yerli istehsal məhsullarının da qiyməti qalxıb. Heyvandarlığı inkişaf etdirməliyik. Xüsusən süd və yağ istehsalı istiqamətlərinin inkişafına önəm verməliyik. Ölkədə yerli kərə yağı istehsalı sahəsində sahibkarlığın inkişafının qayğısına qalmalı, bu istiqamətə xüsusi diqqət yetirilməlidir. Əks təqdirdə heyvandarlıq sahəsində təkcə kərə yağında deyil, digər məhsullarda da idxaldan asılı olacağıq”.



Pərviz Heydərov

# LAÇININ BƏRPASININ İKİNCİ MƏRHƏLƏSİ BAŞLAYIR



**Laçın şəhərinin bərpasının ikinci mərhələsinə başlanılır. Layihədə olan evlərin və binaların layları tam ekspertizadan çıxacaq, sonra təmir-tikinti işlərinə başlanılacaq. Rayonun Bəylik, Şəlvə, Ərikli və digər kəndləri də yenidən tikiləcək.**

İşğaldan azad edilmiş ərazilərin bərpası və məskunlaşdırılması sürətlə davam etdirilir. Artıq bir sıra yaşayış məntəqələrində məlum proses növbəti mərhələyə adlayıb.

### LAÇIN ŞƏHƏRİNƏ 2 003 NƏFƏR KÖÇÜRÜLÜB

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov "Report"a açıqlamasında deyib ki, 2024-cü ilin ikinci yarısı, 2025-ci ilin əvvəlində Laçının Bəylik kəndinin tikilib istifadəyə verilməsi və oraya 91 ailənin köçürülməsi nəzərdə tutulub.

O qeyd edib ki, Laçın şəhərinin bərpasının ikinci mərhələsinə başlamaq da planlaşdırılır: "Bu günə qədər Laçın şəhərinə 2 003 nəfər köçürülüb və bundan sonra da paralel olaraq hər ay 20 ailənin köçürülməsi nəzərdə tutulub. Zabux kəndinə 2023-cü il ərzində 789 nəfər köçürülüb, Sus kəndinə isə bu ilin may-iyun aylarında 59 ailə köçürülüb. Bundan sonra biz Laçın şəhərinin bərpasının ikinci mərhələsinə başlamağı planlaşdırırıq. Layihədə olan evlərin və binaların layları tam ekspertizadan çıxacaq, sonra biz təmir-tikinti işlərinə başlayacağıq".

### LAÇIN RAYONUNDAKI ƏN BÖYÜK QƏSƏBƏ

Xüsusi nümayəndə rayonun Qorçu qəsəbəsinin inşasından da söz açıb: "Qorçu Laçın rayonundakı ən böyük qəsəbədir və orada hava limanı tikilir. Qorçu kəndinin layihəsi üzərindəki işləri bu il tamamlanır. Layihə tamamlandıqdan sonra qəsəbənin tikintisinə başlayacağıq. Yəqin ki, 2025-2026-cı illərdə qəsəbədə tikinti işləri yekunlaşacaq".

### BU İL GÜLƏBİRD KƏNDİNƏ DƏ KÖÇ OLACAQ

Növbəti mərhələdə Laçın sakinlərinin Güləbird kəndinə köçürülməsinə başlanılacaq. Kəndə köç bu ilin ikinci yarısında həyata keçiriləcək.



Məsim Məmmədov

Prezidentin xüsusi nümayəndəsi bildirib ki, rayonun Şəlvə, Ərikli və digər kəndlərinin də tikintisinə başlanılacaq: "Laçın ən uzun müddət işğal altında olmuş rayonumuzdur. Hazırda Laçın cənnətməkana çevrilib. Sakinlərin köçürülməsi prosesi bundan sonra da davam etdiriləcək".



## SOCAR Sloveniyaya qaz təchizatına başlayıb

Bu il avqustun 1-dən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Sloveniyaya qaz təchizatına başlanılıb. "Report" SOCAR-a istinadla xəbər verir ki, qaz təchizatı cari ilin iyulun 17-də SOCAR ilə Sloveniyanın təbii qaz bazarındakı ən iri şirkəti olan "Geoplin" arasında qaz təchizatı sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Anlaşma Memorandumuna əsasən həyata keçirilir. SOCAR və Geoplin uzunmüddətli enerji tərəfdaşlığını daha da inkişaf etdirməyi hədəfləyirlər.

Beləliklə, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan və Serbiya ilə yanaşı, Sloveniya Azərbaycan qazının təchiz olunduğu doqquzuncu ölkə olur.

# "NAR" NATİQLİK ÇEMPİONATININ QALİBLƏRİNİ MÜKAFATLANDIRIB

1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili günündə "Nar"ın dəstəyi ilə təşkil edilən "Diksiya Akademiyası"nın "Ana dilində hekayəni danış" natiqlik çempionatının final mərhələsi uğurla yekunlaşıb. Çempionatın final mərhələsinə vəsiqə qazanan 11 iştirakçı qalib gəlmək üçün səhnədə 5 dəqiqəlik çıxışlarını təqdim ediblər. "Ana dilində hekayəni danış" natiqlik çempionatının qalibi öz xüsusi nitq istedadı ilə fərqlənən Zinyət Əliyeva olub, layihədə 2-ci yerin sahibi Murad Yunusov, 3-cü yerin sahibi isə Davud Muxtarov seçilərək "Nar" tərəfindən xüsusi hədiyyələrlə mükafatlandırılıblar.

"Nar"ın Korporativ Ünsiyyət və İctimaiyyətlə Əlaqələr departamentinin direktoru Hökümə Kərimova müsabiqə qaliblərini təbrik




edib: "Nar" olaraq, Azərbaycan dilinin qorunması və inkişafı bizim üçün böyük əhəmiyyət kəsb edir. Dilimiz milli kimliyimizin, mədəniyyətimizin və tarixi irsimizin əsas bir hissəsidir. Azərbaycan dilindəki zəngin söz ehtiyatı və ifadə imkanları, onun nə qədər dərin və çoxşaxəli olduğunu göstərir. "Ana dilində hekayəni danış" natiqlik çempionatına verdiyimiz dəstək, bu məqsədin həyata keçirilməsinin bir nümunəsidir.

Düzgün və təsirli dil istifadəsi yalnız şəxsi ünsiyyətdə deyil, həm də professional iş mühitində çox əhəmiyyətlidir. Effektiv kommunikasiya bacarıqları, iş dünyasında qarşılıqlı anlaşmanı artırır və peşəkarlığı möhkəmləndirir. Bu cür tədbirlərdə iştirak etməklə, iştirakçılar yalnız dil bacarıqlarını inkişaf etdirməklə qalmır, həm də gələcəkdə iş həyatında uğur qazanmaq üçün lazım olan bacarıqları inkişaf etdirirlər".

Qeyd edək ki, "Ana dilində hekayəni danış" natiqlik çempionatı dörd ildir təşkil edilir və bu vaxta qədər müsabiqəyə 250-dən çox iştirakçı qatılıb. "Nar" ana dilimizin inkişafına təkan verən müxtəlif layihələrlə yanaşı, son iki ildir, natiqlik çempionatının keçirilməsinə də öz dəstəyini göstərir.

Üç əsrin qəzeti Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1752
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

AZƏRBAYCANDA "HALAL TURİZM" XİDMƏTLƏRİ ÜZRƏ YENİ DÖVLƏT STANDARTI QƏBUL EDİLƏCƏK

# HOTELLƏRİMİZ "HALAL" OLACAQ



**2020-ci ildə dəyəri 220 milyard ABŞ dolları olan "halal turizm" sənayesinin qlobal iqtisadiyyata töhfəsi 2026-cı ilə qədər 35 faiz artaraq 300 milyard dollara çatacaq. Belə ki, dünya üzrə müsəlman ziyarətçilərin sayının 2026-cı ildə 230 milyona çatacağı və qlobal turistlərin 10 faizindən çoxunu təşkil edəcəyi gözlənilir.**

SEVİNC ABBASOVA

Müsəlmanların seçimi olan "halal turizm" bu sektorda payını günü-gündən artırır. Hazırda dünya üzrə səyahət edən təxminən 150 milyon müsəlman turistin tətil seçimləri məhz halal sertifikatı ilə formalaşır. Bu sahə ərəb ölkələri ilə yanaşı, Malayziya, Bəhreyn, Misir və Türkiyədə sürətlə inkişaf etməkdədir. Türkiyədə ilk belə hotel 1995-ci ildə istifadəyə verilib. Təbii ki, "halal turizm"in inkişafı üçün müvafiq hotellərin olması zəruridir.

### YENİ DÖVLƏT STANDARTI HAZIRLANIR

Azərbaycanda da beynəlxalq təcrübə əsasında "halal turizm" xidmətləri üzrə yeni dövlət standartının qəbul olunması gözlənilir. Yeni standartların təsdiq edilməsindən sonra turizm obyektlərinə "halal hotel" sertifikatı veriləcək.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli bildirib ki, Azərbaycan Standartlaşdırma İnstitutu halal turizm xidmətləri üzrə yeni dövlət standartı hazırlamaqdadır: "Bu il qəbul edilməsi nəzərdə tutulan standart Azərbaycanda turizmin inkişafına xüsusi töhfə verəcək. Belə ki, standartın əsas məqsədi İslam qaydalarına cavab verən turizm xidmətləri və məhsulları təqdim etmək, onun effektiv tətbiq yolu ilə halal turizm məhsul və xidmətlərini bütövlükdə qorumaq və müştəri məmnuniyyətini artırmaqdır".

Maraqlıdır, "halal hotel"in əsas konsepti nədən ibarətdir? Bu istiqamətdə müvafiq standartların qəbul edilməsi yerli turizmə nə qazandıracaq?

### "HALAL HOTEL" NƏDİR?

Qeyd edək ki, ilk "halal hotel" xristian dövləti olmasına baxmayaraq İngiltərədə istifadəyə verilib. Daha sonra Malayziya, Türkiyə, Səudiyyə Ərəbistanı, Sinqapurda da bu tipli hotellər tikilməyə başlayıb. Hazırda "halal hotel" axtaranlar "Halalbooking"də xüsusi filtrləmə seçimlərindən istifadə edərək onlarla marşrut və hotel arasında seçim edirlər. Halal konseptdə işləyən hotellərdə müəyyən kriteriyalar mövcuddur. Bu hotellərdə mühafizəkar ailələrin bütün həssaslıqları nəzərə alınır. Hotelin quruluşu, eləcə də mətbəxi buna uyğun dizayn edilir. Məsələn, otaqlarda qibləni göstərən işarələr, "Qurani- Kərim" kitabı, namaz xalçaları, islami telekanalların olması əsas tələblərdən sayılır. "Halal hotel"də kişi və qadın hovuzları, gözəllik mərkəzi və fitnes zalları ayrıdır. Bu hotellərdə yemək və içki konsepti halaldır. Menyuda donuz ətindən hazırlanmış təamlar və spirtli içkilər olmur. Əgər hotel dəniz kənarında yerləşirsə, həm kişilər, həm də qadınlar üçün ayrıca çimərliklər mövcud olur. Bəzən obyektlərdə çimərliklər qarışıq da istifadə edilir. Amma bu zaman qadınların xüsusi qapalı çimərlik geyimlərindən istifadə etməsi məcburidir.

### SAY 230 MİLYONA ÇATACAQ

Statistik məlumatlara görə, bu gün dünyanın müxtəlif ölkələrində 350-dən çox "halal hotel" fəaliyyət göstərir. Onlardan 160-a yaxını Türkiyədə yerləşir. 2023-cü il Qlobal Müsəlman Səyahət İndeksinə görə, "halal turizm"ə böyük sərmayə qoyan İndoneziya və Malayziya müsəlman səyahətçilər üçün dünyada ən yaxşı iki istiqamət sayılır. Digər İslam ölkələri, o cümlədən Türkiyə, Səudiyyə Ərəbistanı, Mərakeş, Oman xüsusilə gənc müsəlman turistlərin favoriti olmağa davam edir. İslam Əməkdaşlıq Təşkilatına üzv olmayan Yaponiya, Tailand, Tayvan, Cənubi Koreya və Filippin də müsəlmanlar üçün ən yaxşı səyahət yeri kimi seçilir.

Proqnozlara əsasən, 2020-ci ildə dəyəri 220 milyard ABŞ dolları olan "halal turizm" sənayesinin qlobal iqtisadiyyata töhfəsi 2026-cı ilə qədər 35 faiz artaraq 300 milyard dollara çatacaq. Belə ki, dünya üzrə müsəlman ziyarətçilərin sayının 2026-cı ildə 230 milyona çatacağı və qlobal turistlərin 10 faizindən çoxunu təşkil edəcəyi gözlənilir.




## MÜSBƏT DİNAMİKA YARANA BİLƏR

Turizm üzrə ekspert Ruslan Quliyev bildirib ki, hazırda həm yay, həm qış turizmi üçün "halal hotel" konsepti aktualdır. Onun sözlərinə görə, son illər dünya turizm bazarında "halal otel" konsepti xüsusi diqqət çəkir: "Dünyada "halal hotel"lərə böyük tələbat var. Bu konseptdə hotellərə hər yerdə rast gəlmək mümkün deyil. Belə hotelləri axtaran səyahətçilər bahalı turistlər sayıldığından bu sahədə mövcud olan gəlirlərdən hər bir ölkə pay götürməyə çalışır. Ona görə də dünyada "halal turizm" ilbəil inkişaf edir. İndiyədək bu istiqamətdə Azərbaycanda da müəyyən işlər görülürdü. Ancaq bu konseptdə tam uyğun olan hotel yox idi. Nəzərə almalıyıq ki, Azərbaycana gələn turistlərin böyük əksəriyyəti Körfəz ölkələrini əhatə edir. Düzdür, son illər ölkəyə gələn ərəb turislərin sayı azalıb. Biz bunun səbəblərini axtarmalıyıq. Bəlkə onlar elə Azərbaycanda halal konseptdə hotel olmadığından başqa bazarlara üz tutublar".

Ekspert hesab edir ki, bu istiqamətdə yeni standartların hazırlanması təqdir olunmalıdır: "Güman edirik ki, bu addım növbəti ildə ölkəyə gələn turistlərin sayında müsbət dinamika yaradacaq. Sadəcə, sistemli iş aparılmalıdır".

### TURİZM SEKTORUNUN İQTİSADİYYATDAKI PAYI ARTACAQ

İqtisadçı-ekspert Eyyub Kərimli isə vurğulayıb ki, "halal hotel" standartına Azərbaycan bazarında da tələbat var. Çünki ölkəmizə İslam ölkələrindən xeyli sayda turist gəlir: "Bu sertifikatda hotellərin olması onların məmnuniyyəti üçün müsbət təsir göstərən amillərdəndir. Yəni, "halal hotel" sertifikatı ilə hotellər bu kateqoriyada turistlərin tələbatını qarşılayacaq. Nəticədə müsəlman ölkələrindən gələn turistlərin sayı daha da artacaq. Eyni zamanda, biz müsəlman ölkəsi olduğumuzdan belə hotellərə yerli turistlər də maraq göstərəcəklər. Bu isə turizm sektorunun ölkə istisadiyyatında payını əhəmiyyətli dərəcədə artıracaq".

### HƏM PAYTAXTDA, HƏM DƏ BÖLGƏLƏRDƏ

Turizm üzrə ekspert Rəhman Quliyev bildirib ki, Azərbaycanda "halal hotel"lərin fəaliyyəti həm regionlarda, həm də paytaxt ərazisində nəzərdə tutulub: "Ümumiyyətlə, istənilən hotel də bu konseptə keçə bilər. Bu, Azərbaycana yeni müştəri portfeli yaradacaq. Hesab edirəm ki, dini konseptdə hotellər fəaliyyət göstərsə, yəni halal və alkoqolsuz qidalardan ibarət bufet və ayrı-ayrı hovuzlar mövcud olsa, xüsusi namaz otaqları ayrılsa, Azərbaycana yeni müştəri bazası yaradacaq".

AZƏRBAYCANA İRANDAN, TÜRKİYƏDƏN, BRAZİLİYADAN, KOSTA-RİKADAN VƏ ÇİNDƏN YEMİŞ İDXAL OLUNUB

# YEMİŞİ NİYƏ ÇİNDƏN GƏTİRİRİK?



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan beş il iki aylıq fasilənin ardından Çindən yemiş tədarükünü bərpa edib. Bu ilin yanvar-may aylarında Azərbaycana 86 min ABŞ dolları dəyərində 120,23 ton yemiş idxal edilib. Dövlət Statistika Komitəsinin apardığı hesablamalara əsasən, bu, 2023-cü ilin eyni dövrünün göstəricisindən dəyər ifadəsində iki dəfə, kəmiyyət olaraq – 2,2 dəfə çoxdur. Qeyd edək ki, yemişi təkcə Çindən idxal etmirik. Hesabat dövründə Azərbaycan İrandan 61,32 min ABŞ dolları dəyərində 87,66 ton, Türkiyədən 19,39 min ABŞ dolları dəyərində 27,7 ton, Braziliyadan 4,66 min ABŞ dolları dəyərində 4,66 ton, Kosta-Rikadan 0,2 min ABŞ dolları dəyərində 0,2 ton yemiş alıb.

Heç kimə sirr deyil ki, Azərbaycanın özünün keyfiyyətli yemiş sortları mövcuddur. Hər il bostan mövsümü ərzində yetişdirdiyi yemişi, qarpızı sata bilməyən fermerlərin şikayətlərini eşidirik. Bəs özümüzdə bolluqdursa, yetişdirə biliriksə, yemişi niyə xaricdən idxal edirik?

### SAHƏDƏ YEMİŞİN KİLOQRAMI 15-20 QƏPİKDİR

Kənd Təsərrüfatı Nazirliyinin mətbuat katibi Vüqar Hüseynov bildirdi ki, sahələrdə yemiş hələ yeni yığılmağa başlayır: “Azərbaycanın qədim altı yemiş sortları bərpa olunub. İtməkdə olan “Reyhani”, “Şahnəzər”, “Qəndi”, “Boz Dəli”, “Sineyvaz” və “Uzundadaş” yemiş sortlarının bərpası həyata keçirilib. Bizdə yemişin yığımı hələ indi başlayıb. Bir həftədən çoxdur ki, sahələrdən yığılır. Sahədə yemişin kiloqramı 15-20 qəpikdir. Pərakəndə satışla yerli yemişin kiloqramı hazırda 75 qəpikdir”.

Sözçünün məlumatına görə, yemiş daxili bazara çıxarılmaq üçün gətirilməyib: “Hansısa sahibkar xaricdən məhsul gətirə bilər. Ehtimal var ki, bu yemişlər yanvar ayında gətirilib. Çünki həmin dövrdə özümüzdə olmur. 120 ton çox kiçik həcmdir. Supermarketlər də gətirmiş ola bilər. Çindən ölkəmizə yemiş gətirmək hədsiz baha başa gələr. Onu da heç kim almaz. O səbəbdən daxili bazara çıxarmaq üçün gətirilməsi sərf etmir”.



Vüqar Hüseynov





Heç kimə sirr deyil ki, Azərbaycanın özünün keyfiyyətli yemiş sortları mövcuddur. Hər il bostan mövsümü ərzində yetişdirdiyi yemişi, qarpızı sata bilməyən fermerlərin şikayətlərini eşidirik. Bəs özümüzdə bolluqdursa, yetişdirə biliriksə, yemişi niyə xaricdən idxal edirik?




## QƏDİM YEMİŞ SORTLARI BƏRPA OLUNUR

Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun İdarə Heyətinin sədri Elmar Allahverdiyev də bildirdi ki, yemiş istehsalımız kifayət qədər çoxdur: “Azərbaycanda kifayət qədər bostan və tərəvəz bitkilərinin əkiləcəyi torpaqlar mövcuddur. Yemiş və qarpızla bağlı xüsusilə Mərkəzi Aran rayonlarında münbit şərait var. May-sentyabr aylarından yemiş bazara çıxarılır. Öz məhsullarımız daxili tələbatımızı ödəyir, hətta Rusiyaya da ixrac edirik. Keyfiyyəti də çox yüksəkdir. Kürdəmir, Ucar, Zərdab rayonlarının yemiş ənənələri çox qədim dövrü əhatələyir. Həmin ərazilərdə qədim yemiş sortlarının bərpası ilə bağlı işlər görülür. Kəndlərimiz var ki, 1000 hektar sahədə yemiş əkilir”.

Sədr qeyd etdi ki, yanvar-may ayları ölkəmizdə yemiş istehsalı olmur. Ona görə digər ölkələrdən ixracı labüddür: “Qeyri-mövsüm vaxtı digər ölkələrdən gətirilə bilər. Bu, bütün ölkələrdə baş verən prosesdir. Çünki yanvar-mart aylarında ölkəmizdə yemiş yetişdirilməsi mümkün deyil. Bu bitkinin istiliyə ehtiyacı var. Çinin də cənub hissəsində bəzi bölgələri var ki, isti ərazilərdir və orada məhsul tez yetişir. O səbəbdən də oradan ixrac olunur. Hazırda ölkəmizə yemiş ixrac olunmur. Çünki kifayət qədər istehsal mövcuddur. Hansısa sahibkar kənardan gətirsə də, onu heç kim almayacaq”.



Elmar Allahverdiyev

## “AZAD BAZAR SİSTEMİNDƏ İSTƏNİLƏN ÖLKƏDƏN MƏHSUL GƏTİRİLƏ BİLƏR”

İqtisadçı Emin Qəribli isə düşünür ki, istehsalçılar daha rəqabətli məhsullarla bazarı ələ almalıdırlar: “Azad bazar sistemidir və istənilən ölkədən məhsullar gətirilə bilər. Bizdə istehsal varsa, bu o demək deyil ki, bütün məhsulları özümüz yetişdirməliyik. Bu, mümkünsüzdür. İstehsalçılar rəqabət qabiliyyətli məhsullar istehsal etməlidir. Əgər xaricdən yemiş gətirmək ehtiyacı yaranıbsa, yəqin ki, bazarı tam təmin etmək mümkün olmayıb. Daxili bazarda tələbat varsa və yerli məhsul da bunu ödəyə bilmirsə, burada heç bir problem yoxdur. Ola bilər ki, istehsalçılar lazımi sortları yetişdirə bilmirlər. Müəyyən vərdişləri olmadığı üçün rəqabət qabiliyyətli məhsul istehsal edilmir. Yemişin qiyməti elə də yüksək olmadığı üçün rentabelli deyil və fermerlər də o qədər diqqət etmirlər. Bu da normal haldır. Hansı sahələr daha rentabellidirsə, onlara diqqəti daha çox ayırmalıyıq”.

E.Qəribli bu sahədə görülməli olan işlərdən də danışdı: “Daxili istehsalçıları qorumaq üçün müəyyən tədbirlər görülə bilər. Bunlardan biri də idxalın qarşısını almaqdır. Amma bu da beynəlxalq təşkilatlar tərəfindən müsbət qəbul olunmaya bilər. Əgər həqiqətən də daxili bazarın mühüm hissəsi idxal məhsullarından təşkil olunubsa, bu zaman müvafiq icra orqanları diqqət yetirməlidirlər. Daxili istehsalçıların rəqabət qabiliyyətinin artırılması üçün müvafiq tədbirlər görülməlidir”.



Emin Qəribli

“TƏLƏBƏ VƏ PROFESSORLARLA BƏRABƏR BÖYÜK İŞLƏR GÖRƏCƏYİMƏ ÜMİD EDİRƏM”

# 800 MİN MANATLIQ TƏQAÜD QAZANAN GƏNCİN ƏSAS ARZUSU

Turqut Əfəndi: “Sevindim, amma dərhal da nə edəcəyimlə bağlı planlar qurmağa başladım. Çünki bu təqaüd həm də böyük məsuliyyətdir. Məqsədim elm sahəsində faydalı olmaqdır. Araşdırmalarıma davam etmək istəyirəm. Təhsil alacağım universitet də bunun üçün ideal məkandır”.



SÖHBƏTLƏŞDİ

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Məzun olduqdan sonra oxumağı dayandıran, inkişafı üzərində işləməyən insanı sabahın işsizi adlandırır. Uşaq yaşlarından keçirdiyi boş vaxt onun ən böyük itkisi olub. İkinci kursdan xarici jurnallarda elmi məqaləsi çap olunub. Bu əzmi, çalışqanlığı sayəsində bakalavr səviyyəsindən ABŞ-nin Luiziana Dövlət Universitetinə birbaşa doktoranturaya qəbul olub. Nüfuzlu ali təhsil ocağında kimya mühəndisliyi ixtisası üzrə təhsilini davam etdirəcək həmsöhbətimizin təqaüdü isə 800 min manatdır.

“Örnək” rubrikamızın budəfəki qonağı Bakı Mühəndislik Universitetinin (BMU) Memarlıq və inşaat fakültəsinin kimya mühəndisliyi ixtisasının məzunu və ABŞ-də 800 min manatlıq təqaüdün sahibi Turqut Əfəndidir.

**“ŞANSLIYAM...”**

Sumqayıtda anadan olub. Atası mühəndis, anası müəllimdir. Deyir ki, uşaqlıqdan elmi araşdırmalara maraq göstərib, insanlığa yararlı ola biləcək kəşflər üzərində işləməyi xəyal edib. Ailəsi də onu dəstəkləyib və fikirlərini sərbəst ifadə etməyə imkan yaradıb: “Seçimlərimdə azad idim. Bu baxımdan özümü şanslı hesab edirəm. Əgər bir insan fərd olaraq fikirlərini ifadə etməkdə çətinlik çəkirsə, mənə görə onun gələcəyi və verəcəyi qərarlar da sual altındadır. Hər zaman istədiyimi ailəmdən rahatlıqla tələb edə bilmişəm. İxtisas seçimində də ailəmin təzyiqi olmayıb, daim məni dəstəkləyiblər. Bugünkü nailiyyətimin arxasında onların mənə güvənməsi və fikirlərimə hörmət etməsi dayanır”.

**“MÜHƏNDİSLƏRİ OLMAYAN ÖLKƏ İNKİŞAF ETMƏZ”**

Turqut deyir ki, kimya mühəndisliyinə dünyada və ölkədə tələbat olduğu üçün yönəlib: “Uşaqlıqda elmlə çox maraqlanırdım. Əlimə nə kitab keçsə oxuyur, internetdən kəşflərlə bağlı videolar, filmlər izləyirdim. Həmişə elmi karyera qurmaq istəmişdim. Arzularımı kimya mühəndisliyi ixtisası ilə reallaşdıra biləcəyimi düşündüm. Çünki kimya özündə fizika, biologiya, riyaziyyat kimi elmləri də ehtiva edir. Bundan əlavə, bu ixtisasın həm elmi tərəfi var, həm də mühəndislik. Peşəmi gələcəkdə istədiyim kimi yönləndirə bilərəm”.

Həmsöhbətimiz vurğulayır ki, mühəndisləri olmayan ölkə heç vaxt inkişaf edə bilməz: “Bu ixtisas sənayedə mühüm rola malikdir. Məsələn, buğda istehsal edib sata bilərik, amma buğdanın kilosundan qazandığımız gəlirlər, motor istehsal edib satdıqda qazanacağımız gəlirdən azdır. Kimya mühəndislərinin sənayedə rolu danılmazdır. Bu gün ətrafımızda gördüyümüz hər sahənin bu peşə ilə əlaqəsi var”.

**“UNİVERSİTETƏ QƏBUL OLMAMAQ QARA LƏKƏ DEYİL”**

Turqutu narahat edən digər məsələ peşə seçimi ilə bağlı valideynlərin övladlarına təzyiq göstərməsidir. Deyir ki, insanı irəli aparan öz sevdiyi peşədə təhsil almaq və üzərində işləməkdir: “Hər bir valideyn istəyir ki, övladı həkim, müəllim olsun və ya maliyyə sektorunda işləsin. Amma valideynlər öz arzularını reallaşdırmaq üçün övladlarına lazımsız basqı göstərirlər. Bu da onların psixologiyalarına neqativ təsir göstərir. Hətta universitetə qəbul olan tələbəyə belə, topladığı balla bağlı iradlar bildirilir. Əgər bir tələbə universitetə qəbul olubsa, yığdığı balı heç vaxt, heç kim soruşmur. Bundan sonra inkişaf tələbənin əlində olur. Əgər 680-700 balla universitetə daxil olan tələbə 4 il ərzində özünü inkişaf etdirməyibsə, karyerasında uğurlu olmaq şansı azdır. Yəni DİM, YÖS balı və özümüzü inkişaf etdirmədən aldığımız diplom bizi uğurlu etmir. Nəinki təhsil aldığımız dövrdə, müasir dövrdə məzun olduqdan sonra da oxumağı buraxan şəxs sabah cahil və işsiz qalır. Buna görə də insan ömrünün sonuna qədər öyrənməli, araşdırmalı və üzərində işləməlidir. Təbii ki, universitetə qəbul ola bilməyən insanlar da var. Bu da həyatın sonu deyil. Çünki indiki dövrdə o qədər lazımlı peşələr var ki, orada universitet təhsili əsas deyil. Yəni universitetə qəbul olmamaq qara ləkə hesab olunmamalıdır”.

*“Hər bir valideyn istəyir ki, övladı həkim, müəllim olsun və ya maliyyə sektorunda işləsin. Amma valideynlər öz arzularını reallaşdırmaq üçün övladlarına lazımsız basqı göstərirlər. Bu da onların psixologiyalarına neqativ təsir göstərir.”*






**“SAHƏDƏ İŞLƏYƏN MÜHƏNDİSLƏRDƏN DƏRS ALDIQ”**

Azərbaycan universitetləri yüksək səviyyəli kimya mühəndisi yetişdirirmi sualına gəldikdə isə, həmsöhbətimiz vurğulayır ki, o, Bakı Mühəndislik Universitetində sahədə işləyən mühəndislərdən dərs alıb: “Bizim universitet digərlərindən fərqli olaraq, elmi karyerası olan müəllimlərlə yanaşı, sahədə işləyən mühəndisləri də müəllim kimi dərs keçməyə, real təcrübələrini bölüşməyə gətirdi. Bu sahəni sevməyimdə, inkişafımda bunun rolu çox böyükdür. Çünki biz işin nəzəri tərəfi ilə yanaşı, sənayeni də çox yaxşı öyrəndik. Amma bir çox universitetdə sahə görən müəllim işləmir”.

**“BU TƏQAÜD HƏM DƏ BÖYÜK MƏSULİYYƏTDİR”**

Həmsöhbətimiz ABŞ-nin nüfuzlu universitetində bakalavr pilləsindən birbaşa doktoranturaya qəbul olub. Deyir ki, bu, çox çətin prosesdir, amma mümkünsüz deyil: “Burada dil biliyi ilə bağlı sertifikatlar və universitetdə göstərdiyin nəticələr önəmlidir. Amma ən vacibi sizin ixtisasınızla bağlı əlavə fəaliyyətinizdir. Buraya elmi məqalələr və oxuduğunuz sahədə iş təcrübəsi də daxildir. Qəbul olduğum universitet daha çox elmi araşdırmalar üzrə ixtisaslaşdığı üçün qəbul almağımda elmi məqalələrimin rolu çox olub”.

Həmsöhbətimiz vurğulayır ki, qəbul aldığını və qazandığı təqaüd məbləğini eşitdikdə, əlavə məsuliyyət yaranıb: “Sevindim, amma dərhal da nə edəcəyimlə bağlı planlar qurmağa başladım. Çünki bu təqaüd həm də böyük məsuliyyətdir. Məqsədim elm sahəsində faydalı olmaqdır. Araşdırmalarıma davam etmək istəyirəm. Təhsil alacağım universitet də bunun üçün ideal məkandır. Tələbələr və professorlarla bərabər böyük işlər görəcəyimə ümid edirəm. Uşaqlıqda Nobel mükafatını qazanmaq istəyirdim, indi isə ixtiralarımla dünyaya faydalı olmağı arzulayıram. Ölkəmi təmsil etmək mənim üçün qürurdur”.

# YAYDA PAYIZ HAVASININ FƏSADLARI


Foto: Rüfət Mikayılov - Global Media Group

Bu yay yağışlı və tutqun havalar hər həftə gördüyümüz mənzərəyə çevrilib. Həkimlər belə havaların insanlar üçün təhlükə yaratdığını bildirirlər və ehtiyatlı olmağa çağırırlar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son illər yay fəslində tez-tez havaların qeyri-sabit keçdiyini müşahidə edirik. Yayın ortasında qəfildən leysan yağışları, havaların soyuması halları baş verir. Bu baxımdan bu il də istisna olmadı. İyulun son günlərində müşahidə olunan qeyri-sabit, yaya xas olmayan hava insanları təəccübləndirdi.

Bəs bu cür havalarda necə davranmaq lazımdır? Səhhətimizi necə qorumalıyıq? Diqqət etməli olduğumuz məqamlar hansılardır?

### ÜRƏK-DAMAR, DİABET XƏSTƏLƏRİ DİQQƏTLİ OLMALIDIRLAR

Terapevt Fəxriyyə Əhmədova belə hava dəyişikliklərində xroniki xəstəlikləri olanları daha diqqətli olmağa çağırdı: "Revmatik xəstələr belə havaları daha pis keçirirlər. Onlarda oynaqlarda ağrılar, üşütmə, qızdırma, baş ağrısı, halsızlıq kimi hallar meydana gələ bilir. Ürək-damar xəstəlikləri olan şəxslərin də belə havalarda özlərini narahat hiss etmələri mümkündür. Vegetativ damar distansiyası, yəni sinir sistemində narahatçılığı olan xəstələr də havaların kəskin dəyişməsinə ciddi reaksiya verirlər. Şəkərli diabet xəstəliyi olan şəxslər də risk qrupuna daxildirlər".

### DƏRHAL DƏRMAN QƏBUL ETMƏYİN

Terapevt hesab edir ki, yayda soyuq havalar müvəqqəti olsa da, bəzi məqamlarda ehtiyatlı olmalıyıq: "Belə havalarda dərhal dərman qəbuluna qaçmaq lazım deyil. Ən azından, bir qədər gözləmək məqsədəuyğundur. Əsas da qan təzyiqinə nəzarət etmək lazımdır. Bu cür yağışlı, tutqun havalarda dərmanlara köklənməkdənsə geyimə, yuxu rejiminə fikir vermək tövsiyə edilir. Təzyiqə və şəkərə xüsusi nəzarət mütləqdir. Küləkli havalarda çalışmaq lazımdır ki, açıq havada çox olmayaq. Ürək-damar patologiyası olan insanlar qapalı yerlərdə daha çox zaman keçirməlidirlər. Bu havalar xüsusi xəstəlik yaratmasa da, xroniki halları kəskinləşdirə bilir. Soyuq havada dənizə getmək təhlükəlidir. Çalışmaq lazımdır bu havalarda dondurmadan, soyuq içkilərdən çox istifadə olunmasın. Xüsusilə də uşaqlara nəzarət gücləndirilməlidir".

## "HAVA SOYUYAN KİMİ QIŞ PALTARLARI GEYİNMƏK MƏSLƏHƏT DEYİL"

Allerqoloq Şahvələd Məmmədovun sözlərinə görə, belə dəyişkən havalar bədənin temperatur tənzimləməsinə təsir göstərir: "İnsanlar havalar soyuyan kimi payız fəslinə aid paltarlara keçid edirlər. Bu da orqanizmin temperatur tənzimləməsinin pozulmasına gətirib çıxarır. Bir neçə gündən sonra yenidən havanın isinməsi orqanizmi yenidən dəyişikliyə məcbur edir. Bu da bir çox xroniki xəstələr üçün arzuolunmazdır. Belə havalar müəyyən geomaqnit qasırğaların yaranmasına və ağır ürək-damar, bronxial-ağciyər, xroniki şəkərli diabet, hipertoniya xəstələrinin ağırlaşmalarına gətirib çıxara bilər. Ona görə bu xəstələr belə havalarda daha diqqətli olmalıdırlar. İnsanlar belə dəyişkən havalara adaptasiya olunmalıdırlar. Yəni hava soyuyan kimi qış paltarları geyinmək də məsləhət deyil".


Şahvələd Məmmədov

### BELƏ HAVALARA ADAPTASİYA OLMALIYIQ

Tibb üzrə elmlər doktoru Adil Qeybulla bildirdi ki, hazırda havaların soyuması ilə əlaqədar müəyyən viruslar aktivdir: "Belə havalarda geyimimizə diqqət etmək lazımdır. İnsanlar yay geyimində soyuq havada olurlar. Bu zaman soyuqdəymə halları baş verir. Belə havalarda orqanizmin uyğunlaşma reaksiyaları dəyişdiyindən müəyyən virusların da fəallaşması müşahidə edilir. Bu gün ayrı-ayrı yerlərdə lokal epidemiyaların olmasını da müşahidə edirik. Hesab edirəm ki, yavaş-yavaş belə hava şəraiti dəyişikliklərinə uyğunlaşmalıyıq".

## AQRESSİVLİK, XƏYAL QIRIQLIĞI QAÇILMAZDIR

Psixoloq Gülnarə Muxtarovanın sözlərinə görə, iqlim dəyişikliyi insanlara psixoloji də təsir edir: "Son dönəmlərdə havaların dəyişkən, qeyri-sabit keçməsi, tez-tez yağışların yağması insanların planlarında dəyişiklik etmələrinə səbəb olur. Bu da birbaşa psixologiyaya təsir edir. Çünki əksəriyyət yay aylarında istirahət xəyalları qurur və tətil planlarını gerçək-ləşdirmək istəyir. Hava şəraitinin gözlənilməyən şəkildə dəyişməsi, insanların gözləntilərinin qarşılanmaması aqressivlik, xəyal qırıqlığı yarada bilir. Təkrar işləməyə davam etmək tükənmişlik sindromu kimi psixoloji sindromların baş qaldırmasına, yaxud əgər varsa, daha da güclənməsinə imkan yaradır".


Fəxriyyə Əhmədova

G.Muxtarova düşünür ki, insanlar hava şəraitindən asılı olmayaraq planlarını pozmamalıdırlar: "Belə hallarda insanlar havaların bir az daha yaxşılaşmasını gözləyirlər. Amma tövsiyə edərdim ki, hava şəraiti necə olursa-olsun planlaşdırdıqları istirahəti yubatmasınlar. Sadəcə, hava şəraitinə uyğun B planları da olsun. Alternativ plan qurmaq daha məqsədəuyğundur, nəinki mövcud planı ləğv etmək".

Psixoloq Günel Hacızadənin fikrincə, hava şəraitinin insanlara təsiri fərdidir: "Fəsillərin və hava şəraitinin dəyişməsi insanlara həm fiziki, həm də psixoloji cəhətdən ciddi təsir göstərir. Bəzi insanlara tutqun və buludlu hava pis təsir edərkən, bəzi insanlarda isti və günəşli hava mənfi təsirlər yaradır. Kəskin hava dəyişkənliyi isə əksər insanların motivasiyasına mənfi təsir göstərir. Xəyal etdiyi kimi dincələ bilməmək ruh düşkünlüyü, hətta depressiyaya səbəb ola bilər. İstirahət planı qurarkən, havanın dəyişkənliyini nəzərə almaq lazımdır".


Gülnarə Muxtarova

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
3 AVQUST ŞƏNBƏ 2024
www.kaspi.az



Parisə 48 idmançı ilə yollanan Azərbaycan komandası artıq “şeytanın qıçını qırmağı” bacarıb. Cüdoçularımız Hidayət Heydərov və Zelim Kotsoyev bütün rəqiblərini üstələyərək Fransa paytaxtında iki dəfə himnimizi səsləndirib, şanlı bayrağımızı ucaldıblar.



## AZƏRBAYCAN İDMANININ “QIZIL BEŞLİY”İ

Dördqat Avropa və dünya çempionu Hidayət Heydərov Azərbaycan idman tarixinə “qızıl üçlüy”ü tamamlayan 4-cü idmançı kimi düşüb. Zelim Kotsoyev isə buna nail olan 5-ci idmançı adını qazanıb. Daha əvvəl Avropa və dünya çempionluqlarını qazanan idmançılar medal kolleksiyalarını Parisdə tamamlayıblar. Hidayət və Zelimdən öncə stend atıcısı Zemfira Meftahəddinova, sərbəst güləşçi Şərif Şərifov və taekvondoçu Radik İsayev həm Olimpiya, həm dünya, həm də Avropa çempionu olmağı bacarmışdı. Hidayətin nəticəsi isə digər idmançılarımızdan orijinallığı ilə fərqlənir. Belə ki, o, hər üç uğura eyni ildə imza atıb. Zelim Kotsoyevə gəlincə, o, 2023-cü ildə Avropa çempionu olub, bu il isə dünyanın ən güclüsü adını qazanıb.

# PARİSDƏ AZƏRBAYCAN CÜDOSUNUN TRİUMFU



Fransanın paytaxtı Parisdə Yay Olimpiya Oyunları davam edir. Olimpiadaya 48 idmançı ilə yollanan Azərbaycan komandası uğurlu çıxışı ilə diqqət çəkir. Təmsilçilərimiz artıq üç medalı rəsmiləşdiriblər. Boksçu Alfonso Dominqes yarımfinala yüksəlməklə ən azı “bürünc”ü özü üçün təmin edib. Cüdoçularımız isə Parisdə tarix yazırlar. Yapon döyüş sənəti ustalarımızdan ikisi fəxri kürsünün ən yüksək pilləsinə qalxmağı bacarıb. 73 kq çəki dərəcəsində Hidayət Heydərov, 100 kq-da Zelim Kotsoyev bütün rəqiblərini üstələyərək Fransa paytaxtında iki dəfə Azərbaycan himnini səsləndiriblər və şanlı bayrağımızı ucaldıblar.

### SƏKKİZ İLLİK HƏSRƏTİN SONU VƏ TƏKRARLANAN REKORD

Hidayət Heydərov mübarizəyə 1/8 finaldan başlayıb. O, ilk döyüşündə israilli Tohar Bitbul, növbəti mərhələdə isə kanadalı Artur Marqelidonla üz-üzə gəlib. Yarımfinalda o, Kosovo təmsilçisi Akil Qyakovanın belini yerə vurub. Finalda yerli idmançı Joan-Benjamin Qaba ilə qarşılaşan Heydərov gərgin mübarizənin sonunda “qızıl xal”la Olimpiya qızılına yiyələnib.

Zelim də yarışa 1/8 finaldan başlayıb. O, əvvəlcə polşalı Pyotr Kuçeranı ipponla məğlub edib. Kotsoyev 1/4 finalda Peter Paltçikə, yarımfinalda Muzaffarbek Turoboyevə gücünü göstərib. Finalda isə o, gürcüstanlı İlya Sulamanidzeyə qalib gələrək Olimpiya çempionu olub.

Hidayət və Zelimin uğuru ilə Azərbaycanın Olimpiadalardakı səkkiz illik həsrəti başa çatıb. Sonuncu dəfə 2016-cı il Olimpiadasında taekvondoçu Radik İsayev fəxri kürsünün ən yüksək pilləsinə qalxa bilmişdi. Bu çempionluqlar eyni zamanda Azərbaycanın Yay Olimpiya Oyunlarında doqquzuncu qızıl medalı kimi tarixə düşüb. Hidayət Olimpiya çempionu olan ikinci, onun komanda yoldaşı isə üçüncü cüdoçumuz olub. İlk belə uğura 2008-ci ildə Pekində Elnur Məmmədli imza atıb.

## BAKIDAN GƏLƏN ZƏNG

Hidayət Heydərov və Zelim Kotsoyevin uğuru idmanın dövlət siyasəti olduğu Azərbaycanda, təbii ki, diqqətdən kənar qala bilməzdi. Olimpiya çempionu olduqdan sonra hər iki idmançımıza Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva zəng ediblər. Dövlət başçısı və Birinci vitse-prezident parlaq qələbə münasibətilə idmançılarımıza təbriklərini çatdırıb, onlara gələcək idman fəaliyyətində yeni qələbələr arzulayıblar.

### MEDAL ÜMİDLƏRİ DAVAM EDİR

Yarımfinala vəsiqə qazanmaqla ən azı bürünc medalı təmin edən boksçu Alfonso Dominqes 92 kq çəki dərəcəsində əsas favorit, ikiqat Olimpiya çempionu olan kubalı Xulio Sesar la Krusa, ardınca digər iddialı idmançı – qazaxıstanlı Aybek Oralbaya qalib gəlməklə çempionluq şansını xeyli artırıb. İndi o, öz çəki dərəcəsində əsas favoritdir.

Qarşıdan isə əsas medal ümidlərimiz olan güləşçilərin çıxışı gəlir. Pəhləvanlarımız avqustun 5-də mübarizəyə qoşulacaqlar. Xüsusən, Həsrət Cəfərov, Murad Məmmədov və Sənan Süleymanovdan uğurlu çıxış gözlənilir. Onlar öz çəkilərində qızıl medala əsas namizədlər sırasındadırlar. Titullu güləşçilər – Hacı Əliyev və Mariya Stadnikdən də medal gözləntisi çoxdur. Olimpiadanın sonuna kifayət qədər müddət var və idmanımızın “ağır artilleriyası” hələ mübarizəyə qoşulmayıb. Parisdə daha bir neçə qızıl və digər əyarlı medallar əldə etmək olduqca realdır. Fransadakı Olimpiada Azərbaycan idmanı tarixinə qızıl hərflərlə düşə bilər.